## Səfir: ABŞ Azərbaycanla Ermənistan arasında sülhün qurulmasına sadiqdir



**ABŞ Azərbaycanla Ermənistan arasında sülhün qurulmasına sadiqdir.**

Bunu ABŞ-ın Azərbaycandakı səfiri Erl Litsenberger səfirlikdə keçirilən "Açıq qapı" günündə deyib.

"ABŞ Ermənistanla Azərbaycan arasında istənilən münaqişə məsələsini həll etməyə çalışacaq", - səfir bildirib.

E.Litsenberger qeyd edib ki, ABŞ tərəflər arasında danışıqlar prosesinin qurulmasına xidmət edəcək.

*Səfir əlavə edib ki, bir müddət Avropa İttifaqı da bu məsələyə öz dəstəyini bildirib və ABŞ bu addımı alqışlayır.*



## Türkiyə hərbçiləri 10 terrorçunu məhv edib

**Suriyanın şimalında PKK/YPG terrorçuları "Barış bulağı" və "Zeytun budağı" əməliyyat bölgələrinə soxulmağa cəhd edib.**

Bu barədə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

*Qeyd olunub ki, 10 terrorçu Türkiyə hərbçiləri tərəfindən zərərsizləşdirilib.*


№ 68 (5590), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 aprel 2022-ci il (çərşənbə)




# Mayın 1-dən maska rejimi ləğv olunur

Aprel ayının sonlarında Operativ Qərargahın iclası gözlənilir

**Artıq bir aya yaxındır ki, Azərbaycanda maska rejiminin və quru sərhədlərinin açılması ilə bağlı müzakirələr gedir.** Pandemiya ilə bağlı son günlərin statistikası da bu qadağaların ləğvi ilə bağlı münbit şərait yarandığını göstərir. Bu barədə hətta Milli Məclisdə deputatlar da müxtəlif bəyanatlarla çıxış edirlər.

Bizim.Media bildirir ki, may ayının 1-dən Azərbaycanda maska rejiminin ləğv edilməsi ilə bağlı qərar veriləcək.

Bununla bağlı aprel ayının sonlarında Operativ Qərargahın iclasının keçiriləcəyi də bildirilir.

(səh.4)



## "Brüssel prosesi həqiqətən dönüş nöqtəsidir"

Prezident İlham Əliyev: "Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik"

**"Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm".** Bunu Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən deyib. Dövlət başçısı bəyan edib ki, Ermənistanın baş naziri də normallaşma prosesi və Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışıb.

(səh.2)

## Sadır Japarov Azərbaycana gəlib



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu və xanımı Ayqul Japarovanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Putinlə Paşinyan razılığa gəliblər

Azərbaycan - Ermənistan sərhədinin delimitasiyası sürətləndiriləcək



**Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyada səfərdədir. Hökumət başçısı Moskvaya Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, Xarici işlər naziri Ararat Mirzoyan və digər rəsmilərlə yollanıb.**

Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə görüşüb. Tərəflər Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında üçtərəfli bəyanatların icrasını, o cümlədən regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə tədbirləri müzakirə ediblər. Görüşdə Rusiya-Ermənistan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gələcək inkişafının aktual məsələləri ətrafında da fikir mübadiləsi aparılıb. Rusiya Prezidenti Vladimir Putin Paşinyanla görüşdə Qarabağda hələ çox problemlərin olduğunu deyib.

(səh.3)

# Endryu Şofer bölgəyə kəşfiyyata gəlib

Ermənistan daha həmsədrlik institutunu dirçəldə bilməyəcək




**ABŞ dövlət katibinin köməkçisi Karen Donfrid Dövlət Departamentindən alınan təlimat əsasında, ABŞ-ın Qafqazdakı danışıqlar üzrə baş müşaviri Endryu Şoferi Ermənistana yola salıb.**

Şofer İrəvandan sonra Bakıya gələcək. Ekspertlərin fikrincə, səfər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Qərbin bundan sonrakı rolunun hansı səviyyədə olacağını müəyyən etmək üçün kəşfiyyat xarakteri daşıyır. Şoferin siması və soyadı bizə əvvəldən tanışdır. O, bundan əvvəl ATƏT-in Minsk qrupunun amerikalı həmsədri qismində regiona səfərlər edib.

(səh.4)



## Qarabağdakı 4 çayın çirklənmə prosesi onlayn izləniləcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Qarabağda olan çaylar üzərində 10 avtomat hidrometeoroloji stansiya quraşdıracaq.**

Bunu Zəngilan rayonuna mediatur zamanı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometrologiya Xidmətinin rəisi Umayra Tağıyeva deyib.

O bildirib ki, 4 çayda - Bəsitçay, Oxçuçay, Bərgüşad və Araz çaylarında quraşdırılacaq avtomat stansiyalar keyfiyyət sensorları ilə təchiz ediləcək: "Avtomat stansiyalar çayın çirklənməsini onlayn olaraq avtomatik və fasiləsiz olaraq mütəmadi müəyyən edəcək. İstər beynəlxalq qurumlar, istərsə də Azərbaycanın istənilən yerli qurumu həmin stansiyalar vasitəsilə çayın çirklənmə səviyyəsi barədə onlayn məlumat ala biləcəklər".

## Ölən yoxdur

Azərbaycanda 26 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 26 yeni yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 391 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 572 nəfər müalicə olunaraq sağalıb, 9 706 nəfər vəfat edib, aktiv xəstə sayı 113 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 553, hazırkı dövrədək isə 6 776 404 test aparılıb.*

## Qubada kişi keçmiş arvadını qətlə yetirib, sonra intihar edib



**Aprelin 19-u saat 13 radələrində Quba rayonu, Bərqov kənd sakinləri - 1966-cı il təvəllüdlü İlham Xudamov və 1973-cü il təvəllüdlü Sara Əsədovanın birgə yaşadıqları evdə ölmələri barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Quba rayon prokurorluğundan verilən məlumata görə, aparılmış ilkin araşdırmalarla İlham Xudamovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla keçmiş arvadı Sara Əsədovaya çoxsaylı xəsarətlər yetirərək qəsdən öldürməsinə, daha sonra həmin bıçaqla özünə xəsarət yetirərək intihar etməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Quba rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

*Hazırda cinayət işi üzrə istintaq davam edir.*

## Rusiyadan sonra ABŞ da Minsk qrupuna "əlvida" dedi

"İmtina təşəbbüsü də Qərbdən gəlib, bunu xüsusi vurğulamaq lazımdır"

(səh.3)



## Ən etibarlısı qızıldır

"Müharibələr, təlatümlər dövründə qızıl investorlar üçün həmişə güvənli liman rolunu oynayır"

(səh.4)



# "Brüssel prosesi həqiqətən dönüş nöqtəsidir"

Prezident İlham Əliyev: "Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik"



"Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycan və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir"

**"Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm". Bunu Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən deyib. Dövlət başçısı bəyan edib ki, Ermənistanın baş naziri də normallaşma prosesi və Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışıb:**

"Bu, prosesdə həqiqətən dönüş nöqtəsidir. Düşünürəm ki, müsbət şərhlərdir. İndi hər iki tərəfin bu rəsmi açıqlamasından sonra biz ciddiyyətimizi masa üzərində sübuta yetirməliyik. Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik. O artıq prosesə çox yaxşı bələddir. Düşünürəm ki, bu, uğurlu danışıqlar üçün çox ümidverici mühit yaradır. Beləliklə, biz bu gün bunu daha ətraflı şəkildə müzakirə edəcəyik. Sadəcə, bizim mövqeyimizə görə, Brüsseldə baş verənlərlə və aprelin 6-dan sonra baş verən hadisələrlə bağlı rəsmi mövqeyimizi ifadə etmək istədim".

**"Növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq"**

Prezident əlavə edib ki, növbəti ilin sonuna kimi avtomagistral Ermənistan sərhədinə çatdırılacaq: "Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Biz, həmçinin ümid edirik, növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq. Lakin təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməyib. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilən görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik".

**"Kommunikasiyalar məsələsinin aydınlaşdırılmasına ehtiyac var"**

Ölkə rəhbəri qeyd edib ki, Ermənistan tərəfi ilə Azərbaycan və Naxçıvanla kommunikasiyalar məsələsinin aydınlaşdırılmasına ehtiyac var: "Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycan və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Mən həm dəmir yolunu, həm də avtomobil yolunu nəzərdə tuturam. Çünki dəmir yolu ilə bağlı mən Prezident Mişelə məlumat verdim ki, biz dəmir yolunun Azərbaycan ərazisində 100 kilometrdən artıq 60 kilometrlik hissəni tikmişik və tikintini gələn il tamamlayacağıq. Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir".

**İsmayıl**



# İkinci Dünya müharibəsi veteranlarına birdəfəlik maddi yardım veriləcək

Prezident İlham Əliyevin yeni Sərəncamı 4500-ə yaxın şəxsə şamil olunacaq

**Prezident İlham Əliyevin imzaladığı yeni "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 19 aprel 2022-ci il tarixli Sərəncam həmin kateqoriyadan olan vətəndaşlara dövlət başçısının yüksək diqqət və qayğısının növbəti təzahürüdür.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 96 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək.

Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 4395 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardım veriləcək.

Beləliklə Sərəncam 4500-ə yaxın şəxsi əhatə edəcək.

Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,5 milyon manat ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# Ceyhun Bayramov Niderlandın xarici işlər naziri ilə telefonla danışıb

Tərəflər ikitərəfli gündəliyin cari məsələləri, habelə əlaqələrin inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparıblar

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Niderland Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Vopke Hoekstra ilə telefon danışığı baş tutub.**




Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyinə istinadən xəbər verir.

Nazirlər iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə qarşılıqlı təbriklərini və xoş arzularını ifadə ediblər.

Tərəflər ikitərəfli gündəliyin cari məsələləri, habelə əlaqələrin inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparıblar. Bu ilin 15 mart tarixində iki ölkənin Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin keçirilməsi məmnunluqla vurğulanıb və bu təcrübənin gələcəkdə davam etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində görülən işlər, bu xüsusda liderlərin Brüssel görüşündə əldə edilmiş razılaşmaların icrasının vacibliyi, eləcə də bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafına dair Azərbaycanın baxışlarına dair məlumat verib.

Nazirlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Ukraynadakı vəziyyət, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Aygün**




## Azərbaycanda daha 15 dövlət əmlakı özəlləşdirilib

**Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən növbəti hərracda 1 yarımçıq tikili, 14 nəqliyyat vasitəsi özəlləşdirilib.**

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, dövlət əmlaklarına ümumilikdə 40 sifariş qəbul olunub ki, bunun 11-i elektron qaydada həyata keçirilib.

Hərracda özəlləşdirilən dövlət əmlakının siyahısı ilə Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi saytından tanış olmaq olar.

*Qeyd edək ki, aprel ayı üzrə daha 2 hərrac keçiriləcək.*

## Azərbaycan və Türkiyə hərbçilərinin taktiki-xüsusi məşqləri keçirilir



**Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin Mühəndis Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə silahlanmada olan müasir texnika və avadanlıqların tətbiqi ilə mühəndis təminatı üzrə taktiki-xüsusi məşqlər keçirilir.**

"Şərq" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, keçirilən dərslərin mövzusuna əsasən istehkamçılar minaaxtaranların taktiki-texniki xüsusiyyətlərini öyrənir, onlardan istifadə qaydaları barədə nəzəri biliklərini artırırlar.

Xüsusi hazırlanmış mühəndis şəhərciyində istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkar edilməsi və zərərsizləşdirilməsi mövzusunda fəaliyyətləri praktiki olaraq icra edib.



## Türkiyədə karantin rejimi ləğv edilir

**Türkiyə Koronavirus Elmi Qərargahı tibbi maskalardan istifadə tələbi və karantin rejiminin ləğv edilməsi məsələlərini müzakirə etmək üçün sabah toplanacaq.**

Trend-in TurkicWorld-a istinadən məlumatına görə, qərargahda bütün qapalı məkanlarda tibbi maskalardan istifadə məcburiyyətinin aradan qaldırılması məsələsinə də toxunulacaq.

Bununla yanaşı, karantin rejimi müddətinin ləğv edilməsi məsələsinin də müzakirə olunacağı gözlənilir.

## Ukrayna və Rusiya arasında əsirlərin növbəti mübadiləsi olub

**Ukrayna ilə Rusiya arasında növbəti əsir mübadiləsi olub.**

APA xəbər verir ki, bu barədə Ukrayna Baş nazirinin müavini İrina Vereşçuk öz "Telegram" səhifəsində bildirib.

Vereşçuk 76 ukraynalının geri qaytarıldığını bildirib. O əlavə edib ki, qaytarılanların arasında hərbçilər, o cümlədən 10 zabit və 16 dinc sakin var.

*Xatırladaq ki, bu Rusiya ilə Ukrayna arasında martın 24-dən bəri sayca beşinci əsir mübadiləsdir.*

## Şuşada tikintiyə dair tələblər sərtləşdirilir

**Şuşa şəhərinin ərazisində tikinti, memarlıq və şəhərsalma fəaliyyətinə dair tələblər sərtləşdirilir.**

Bununla bağlı "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna dəyişiklik təklif edilir.




Hazırda qüvvədə olan qanuna əsasən, Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğuna məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən qəbul edilir.

Layihəyə əsasən, artıq bu tələb tək arxeoloji deyil, bütün abidələrə şamil ediləcək. Başqa sözlə, Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğuna məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən qəbul ediləcək.



# Sahibə Qafarova Gürcüstan Prezidenti ilə görüşüb

**Milli Məclisin sədri Sahibə Qafarova aprelin 19-da Gürcüstana rəsmi səfəri çərçivəsində Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Şərq"ə verilən xəbərə görə, Milli Məclisin sədrini Gürcüstanda salamlamaqdan məmnunluğunu bildirən Prezident Salome Zurabişvili belə səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb.

Qarşılıqlı əməkdaşlığın inkişafında parlamentlərin rolunu xüsusi qeyd edən Gürcüstanın dövlət başçısı parlamentlər ərzində Azərbaycan və Gürcüstan arasında imzalanmış sənədlər müxtəlif sahələrdə əməkdaşlığımız üçün möhkəm hüquqi baza yaradır.

Sahibə Qafarova iki qonşu və dost ölkə arasında İqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın fəaliyyətini xüsusi qeyd edib. Bildirib ki, Gürcüstan arasındakı sıx münasibətlərin qurulmasına görə təşəkkürünü bildirib. O, Gürcüstanın və Azərbaycanın hər zaman beynəlxalq müstəvidə bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə edib.

Söhbət zamanı xanım Salome Zurabişvili diasporların fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycana sülh və sabitlik arzularını ifadə edib.

Milli Məclisin sədri Sahibə Qafarova nümayəndə heyətinə göstərilən qonaqpərvər münasibətə görə təşəkkürünü bildirib. Spiker qeyd edib ki, qonşu və dost ölkələr olan Azərbaycan və Gürcüstan arasında münasibətlər çoxəsrlik tarixə malikdir. Müstəqillik dövründə isə bu əlaqələrimiz daha da inkişaf edib və bu il biz diplomatik əlaqələrimizin qurulmasının 30-cu ildönümünü qeyd edəcəyik.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu dostluq münasibətləri bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən illər Azərbaycanın həyata keçirdiyi nəhəng beynəlxalq layihələrin fəal iştirakçısıdır.

İki ölkənin parlamentləri arasında münasibətlərdən danışan spiker diqqətə çatdırıb ki, Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında qanunverici orqanların özünəməxsus rolu var.

Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlıq edirlər. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament qurumlarında uğurla əməkdaşlıq edirlər.

Söhbət zamanı Milli Məclisin sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında danışaraq bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib.

Spiker bildirib ki, Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi və kəndlərimizi dağıdıb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə qovuşub və hazırda Azərbaycan məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün azad edilmiş əraziləri minalardan təmizləyir, bərpa edir. Azərbaycan Ermənistana bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başlanması, regionda bütün kommunikasiyaların bərpa olunması və münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təkliflər verib.

Ümid edirik ki, tezliklə iki ölkə arasında sülh sazişinin imzalanması bütün regionun inkişafına və çiçəklənməsinə böyük töhfə verəcəkdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**İsmayıl**

# Putinlə Paşinyan razılığa gəliblər

## Azərbaycan - Ermənistan sərhədinin delimitasiyası sürətləndiriləcək



İsmayıl Qocayev

**Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyada səfərdədir. Hökumət başçısı Moskvaya Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, Xarici işlər naziri Ararat Mirzoyan və digər rəsmilərlə yollanıb.**

Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə görüşüb. Tərəflər Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında üçtərəfli bəyanatların icrasını, o cümlədən regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə tədbirləri müzakirə ediblər. Görüşdə Rusiya-Ermənistan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gələcək inkişafının aktual məsələləri ətrafında da fikir mübadiləsi aparılıb. Rusiya Prezidenti Vladimir Putin Paşinyanla görüşdə Qarabağda hələ çox problemlərin olduğunu deyib. Kreml rəhbəri Paşinyanla Qarabağın təhlükəsizliyi məsələsini müzakirə edəcəyini bəyan edib. Baş nazirin Rusiyanın Nijni Novqorod şəhərinə də səfəri planlaşdırılır. Səfər iki gün davam edəcək. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Paşinyanın Moskvada rəsmi səfəri zamanı iki ölkə arasında sənədlər paketi imzalanacaq.

Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan ikitərəfli görüşdə danışıqlar zamanı Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə komissiyanın yaradılması prosesini sürətləndirmək barədə razılığa gəliblər.

Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

”Liderlər Cənubi Qafqazdakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Onlar Azərbaycan, Ermənistan və Rusiya liderlərinin müntəzəm görüşləri çərçivəsində konstruktiv işin davam etdirilməsinin və üç liderin noyabrın 10-da imzaladığı razılaşmaların ardıcıl şəkildə həyata keçirilməsinin tərəfdarı olduqlarını bildiriblər”, - bəyanatda deyilir.

“Moskva bölgədə əsas vasitəçilik missiyasını saxlamaq istəyir. Həmçinin, kommunikasiyaların açılmasını sürətləndirməyi düşünür”

Tərəflər Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin birgə sədrliyi ilə Cənubi Qafqazda bütün iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının qarşısının alınması üzrə Üçtərəfli İşçi Qrupun fəaliyyətini aktivləşdirməyi qərara alıblar:

Tərəflər, həmçinin regionun bütün ölkələri arasında dialoqun və çoxşaxəli əməkdaşlığın təşviqi üçün əlavə imkanlar təmin etmək üçün nəzərdə tutulmuş 3+3 əməkdaşlıq formatının uğurla fəaliyyətə başladığını qeyd ediblər.

**Paşinyanın iki günlük Rusiya səfərini ”Şərq”ə analiz edən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Moskva İrəvanla münasibətləri Ukrayna müharibəsindən sonra dəyişən yeni geosiyasi şərtlərə uyğunlaşdırmaq niyyətindədir.** Ekspertin sözlərinə görə, Putin-Paşinyan görüşünün əsas gündəminə 10 noyabr, 11 yanvar və 26 noyabr razılaşmalarının icrası da daxildir: ”Son proseslər bu görüşün Qarabağ məsələsində həlledici ola biləcəyi ehtimalını önə çıxarır. Səfərdən öncə iki məqam xüsusilə diqqət çəkdi. Birincisi, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin İrəvana zəngi idi. Avropa İttifaqı Paşinyanın Brüssel razılaşmasına qarşı sadiqliyini və Moskvada bu razılaşmanın əleyhinə olacaq addımın atılmamasını istəyir. Qarabağdakı separatçı-terrorçuların ”rəhbərliyi” Araik Arutyunyan və Vitali Balasanyan İrəvanda Paşinyanla görüşüb. Separatçılar Paşinyandan Moskva görüşündə onların ”status”, ”müstəqillik” iddialarını nəzərə almağı tələb edib. Separatçıların narahatlığı göstərir ki, onların Rusiyadan da gözləntiləri azdır. Paşinyanla görüşə Araiklə yanaşı, keçmiş ”Qarabağ klanı”nın üzvü və Rusiyaya yaxınlığı ilə tanınan Vitali Balasanyanın gəlməsi də bunu deməyə əsas verir. Paşinyanın edə biləcəyi yalnız Rusiyanın vasitəçiliyi ilə əldə olunan razılaşmaların icrasıdır. Bakının sülh sazişi üçün təqdim etdiyi 5 əsas prinsip həm də bu razılaşmalara söykənir. Hər iki halda Brüssel razılaşması, yaxud Moskvanın vasitəçilik etdiyi razılaşmalar bu və ya digər formada bizim istəyimizə uyğundur”.

**Analitikə görə, Rusiyanın mövcud situasiyada əsas istəyi isə bəllidir:** ”Moskva bölgədə əsas vasitəçilik missiyasını saxlamaq istəyir. Həmçinin, kommunikasiyaların açılmasını sürətləndirməyi düşünür. Qərblə qarşıdurma fonunda Cənubi Qafqazdakı mövqelərini qorumaq, xüsusilə Ermənistana quru əlaqə yaratmaq üçün ruslara bu lazımdır. Amma bu məsələ Moskvanın vasitəçiliyi ilə əldə olunan 10 noyabr və 26 noyabr razılaşmalarının icrasından asılı olacaq. Məsələ ondadır ki, 10 noyabr razılaşmasının 4-cü bəndi - erməni qoşunların Azərbaycan ərazisindən çıxarılması icra olunmalıdır. Eyni zamanda sərhədin delimitasiya və demarkasiyası həyata keçirilməlidir. Bu iki məqam icra olunmadığı təqdirdə kommunikasiyanın açılması mümkün deyil. Bu baxımdan, Putin-Paşinyan görüşünün 4-cü bəndin icrasına təsir edə biləcəyi mümkündür. Sərhədin müəyyən edilməsi isə həm Brüssel, həm də Soçi razılaşmasında eyni ”qapıya” çıxır”.

**Aprelin 21-25-də işğaldan azad olunmuş Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı keçiriləcək. Önəmli tədbirin təşkili ilə bağlı hazırlıq işləri başa çatmaq üzrədir. Diasporla İş üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə, qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edəcək.**




# Toplantıların Şuşada keçirilməsinin psixoloji əhəmiyyəti var

## “Düşmənlərimiz xüsusən dünya azərbaycanlılarının ora toplaşacağını bildikdə daha çox nəticə çıxartmalı olurlar”

Dünya Azərbaycanlılarının V Qurultayı onunla əlamətdardır ki, torpaqlarımızın işğaldan azad olunduğu dövrə təsadüf edir. Tədbirin Şuşada keçirilməsi isə böyük tarixi əhəmiyyət və rəmzi məna daşıyır.

**Qurultayın Şuşada keçirilməsi qərarı ilə bağlı ”Şərq”ə danışan millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bildirib ki, Şuşada verilən bütün bəyanatların, keçirilən tədbirlərin ilk növbədə psixoloji əhəmiyyəti var. Deputat vurğulayıb ki, Şuşanın çevrəsi düşmənlə əhatələnib:** ”Düşmənlərimiz hər dəfə Şuşada hansısa tədbirin keçiriləcəyini eşitdikdə, xüsusən dünya azərbaycanlılarının ora toplaşacağını bildikdə daha çox nəticə çıxartmalı olurlar. Ona görə də səslənən bəyanatların məzmununun o qədər əhəmiyyəti yoxdur. Əlbəttə, bəyanatlar, verilən mesajlar ümumən, birlik və həmrəylik baxımından vacibdir. Amma əsas məsələ mesajların məhz Şuşadan verilməsidir. Bəyanatların Şuşadan səslənməsinin təsiri, effekti çox böyük olur. Əminəm ki, belə məsələlər erməni mühitinə öz zərbəsini vurur. Xüsusən, zəhərlənmiş erməni zehniyyəti Azərbaycanın gücü qarşısında daha çox psixoloji sarsıntı keçirir. O baxımdan tədbirləri davamlı reallaşdırmaq lazımdır. Belə tədbirlər bütün hallarda Şuşanın özümüzünküləşdirmə tendensiyasına, Azərbaycanın ayrılmaz tərkib hissəsi olması fəlsəfəsinə əlavə çalarlar gətirir. Həm də ermənilərə anladılır ki, onlar bu zehniyyətlə torpaqlarımızda yaşaya bilməyəcəklər. Ümumən, diaspora fəaliyyəti xeyli canlanıb. V Qurultayın Şuşada keçirilməsi Diaspora Komitəsinin doğru seçimidir. Şuşa aurasından sonra xarici ölkələrdə yaşayan soydaşlarımızın Vətən duyğusu daha da artacaq”.

**İsmayıl Qocayev**

# Rusiyadan sonra ABŞ da Minsk qrupuna "əlvida" dedi

## “İmtina təşəbbüsü Qərbdən gəlib, bunu xüsusi vurğulamaq lazımdır”

**Amerika Birləşmiş Ştatları da ATƏT-in Minsk qrupunun de-fakto ”dəfn edildiyini” qəbul edir. ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunun məlumatında bildirilib ki, dövlət katibinin köməkçisi Donfrid Qafqazda danışıqlar üzrə baş müşaviri Endryu Şoferi regiona göndərib. Xatırladaq ki, Endryu Şofer Minsk qrupunda amerikalı həmsədr idi.**




ABŞ Cənubi Qafqaz üzrə öz nümayəndəsini təyin edib. Məqsəd regionda Vaşinqtonun iştirak imkanlarını saxlamaqdır

Lakin Dövlət Departamentinin son məlumatı göstərir ki, o, artıq həmsədr yox, ”Qafqazda danışıqlar üzrə baş müşavir”dir. Nikol Paşinyanla görüşdə Ermənistan tərəfinin Şoferi ”Minsk qrupunun amerikalı həmsədri” kimi təqdim etməsi isə İrəvanın birtərəfli mövqeyidir. Görünən odur ki, Vaşinqton Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması və sülh sazişinin imzalanması prosesinin Brüssel razılaşması çərçivəsində həyata keçirilməsini istəyir.

**Millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu ”Şərq”ə açıqlamasında bildirib ki, Minsk qrupu onsuz da formal xarakter daşıyırdı və heç bir fəaliyyəti gözə dəymirdi. Deputatın sözlərinə görə, həmsədrlərin regiona saysız-hesabsız səfərlərindən başqa hansısa addımlarına rast gəlməmişik:** ”Gəliş-gedişlər isə turist səfərlərini xatırladıb. Minsk qrupunun mandatı de-yure mövcud olsa da, faktiki olaraq həmsədrlik institutu fəaliyyətsizdir. Əgər münaqişənin tənzimlənməsi istiqamətində vasitəçi olmuş institut heç bir nəticə əldə edə bilməyibsə, bu qurumun önəmindən danışmağa əsas qalmır. Cənab Prezident İlham Əliyev də 12 aprel müsahibəsində qeyd etmişdi ki, faktiki olaraq Minsk qrupunun mandatı mövcud deyil. Həm Rusiya, həm ABŞ Minsk qrupundan imtina edib. İmtina təşəbbüsü də Qərbdən gəlib. Bunu xüsusi vurğulamaq lazımdır”.

Parlament üzvü vurğulayıb ki, fəaliyyətsiz bir qurumun son proseslər fonunda mandatı haqqında yenidən müzakirə aparmaq mənasızdır: ”Cənubi Qafqaz regionunda böyük dövlətlərin maraqları var. Onlar bölgədə baş verən proseslərdən heç bir halda kənarda qalmaq istəmirlər. Məhz o səbəbdən ABŞ Cənubi Qafqaz üzrə öz nümayəndəsini təyin edib. Məqsəd regionda Vaşinqtonun iştirak imkanlarını saxlamaqdır. Lakin bundan sonra Minsk qrupunun ümumiyyətlə hər hansı istiqamətdə fəaliyyəti gözə dəyməyəcək. Həmsədrlik institutu hətta formal şəkildə belə mövcud deyil. Qərblə Rusiya arasındakı gərginlik ortadadır. Minsk qrupu artıq tarixə qovuşub”.

**İsmayıl Qocayev**

# Təzyiq mexanizmlərini artırmaq lazımdır

## Dinc insanlarımız, hərbçilərimiz ermənilərin basdırdığı minaların qurbanı olur

Şəymən

**Azərbaycan Ombudsmanı Səbinə Əliyeva azad edilmiş ərazilərdə mövcud olan mina təhlükəsi ilə bağlı ciddi narahatlığını bildirib.**

**Ermənistana beynəlxalq hüquqa hörmət etmək öhdəliyini xatırladan Ombudsman beynəlxalq təşkilatları ədalətli yanaşma sərgiləyərək, qəti münasibət bildirməklə bu məsələdə Azərbaycana dəstək ifadə etməyə çağırıb:**

”Azərbaycanın azad edilmiş ərazilərində mövcud olan mina problemi məcburi köçkünlərin doğma yurdlarına qayıdışını ləngitməklə yanaşı, çoxsaylı insanların həyatına son qoyub və ya ömürlük əlillik dərəcəsi almalarına səbəb olub.

Kəlbəcər rayonunun Günəşli kənd sakinlərinin öz evlərini ziyarət etməsi məqsədilə təşkil edilmiş səfərdə növbəti belə faciənin qarşısı alınıb.

Kütləvi insan tələfatına səbəb ola biləcək həmin minaların 2020-ci ildə Kəlbəcər rayonunun boşaldılması üçün ermənilərə verilmiş müddət ərzində basdırıldığı ehtimal edilir. Təəssüf ki, Azərbaycanın humanist yanaşmasına cavab olaraq Ermənistanın cinayətkar əməlləri günahsız insanların həyatlarına təhlükə yaratmaqdadır. Ötən il iyun ayında da həmin rayonda tank əleyhinə minanın partlaması nəticəsində iki jurnalist və bir məmur həlak olub.

Ermənistan tərəfindən mülki əhalinin yaşayış yerlərinin yaxınlığında minalar basdırılması və Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına baxmayaraq dəqiq mina xəritələrinin təqdim edilməməsi beynəlxalq humanitar hüquqa zidd olmaqla, insanların bir çox fundamental hüquqlarının pozulmasına gətirib çıxarır. Bununla bağlı tərəfimizdən dəfələrlə beynəlxalq təşkilatlara müraciətlər edilsə də, nəticə əldə olunmayıb”.



“Beynəlxalq təzyiqlər artdıqca ermənilər xəritələri verməyə məcbur olacaqlar”

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı isə ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan konkret hədəfə varana, dəqiq mina xəritələrini alana qədər bu istiqamətdə çağırış və notalar verməyə davam etməlidir:**

”Aydın məsələdir ki, ərazilərimizin minalanması Ermənistan dövləti tərəfindən həyata keçirilib. Biz buna dair faktları, hadisələri vaxtaşırı olaraq beynəlxalq vasitəçilərin diqqətinə çatdırmalı, dünyaya göstərib bəyan etməliyik ki, Ermənistan terrorun bütün növlərini, o cümlədən mina terrorunu dəstəkləyən və həyata keçirən ölkədir. Ermənistan rəhbərliyi minalarla bağlı ikiüzlülük etməkdə davam edir, ikiüzlü siyasət aparır. Minaların dəqiq yerlərini göstərən xəritələri Azərbaycana verməməklə Ermənistan müharibədən sonra da öz terrorçuluq əməllərini davam etdirdiyini göstərir. Açıq görsənir ki, bu ölkə bizim daha çox dinc insanımızın, hərbçilərimizin mina qurbanı olmasını istəyir. Bu da Ermənistan rəhbərliyinin iç üzünü açıb ifşa edən faktlardandır. Torpaqlarımızdan çıxmaq üçün ermənilərə vaxt verildi və həmin müddətdə onlar tələm-tələsik torpaqlarımızı minalayıb çıxıblar. Bu hadisənin özü belə erməni xislətinin təcəssümüdür. Onların niyyətlərinin hər zaman pis olduğunun göstəricisidir”.

A.Nağının fikrincə, minalanmış sahələrlə əlaqəli təzyiq mexanizmi davamlı olmadığı üçün qarşı tərəf arxayın davranaraq humanist addım atmır: ”Düşünürəm ki, beynəlxalq təzyiqlər artdıqca ermənilər xəritələri verməyə məcbur olacaqlar. Ona görə də Azərbaycan Xarici İşlər Nazirliyi səviyyəsində bu məsələ həll olunana qədər mübarizəsini davam etdirməlidir”.

# Onkoloji və skleroz xəstələri pensiya alacaq

## Layihə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub

**Dünən Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. İclası açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, gündəliyə 6 məsələ daxil edilib.**



İclasda ”Onkoloji yardım haqqında” və ”Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi müzakirə olunub.

Qanun layihəsini təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin Humanitar məsələlər üzrə qanunvericilik sektorunun əməkdaşı Seymur Əşrəfli bildirib ki, qanun layihəsi onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və (və ya) əmək pensiyası almaq hüququnu müəyyənləşdirir. Layihə ”Əmək pensiyaları haqqında” və ”Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihələrinə uyğunlaşdırma xarakteri daşıyır və xəstəlikdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Layihə barədə fikirlərini bildirən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev diqqətə çatdırıb ki, dəyişikliyə əsasən, ”Onkoloji yardım haqqında” Qanunun onkoloji xəstələrin sosial müdafiəsinə dair 9-cu maddəsi və ”Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Qanunun bu xəstəliyə tutulmuş şəxslərin sosial müdafiəsinə dair 9-cu maddəsi yeni redaksiyada veriləcək.

İclasda deputatlardan Rəşad Mahmudovun və İlham Məmmədovun fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

# Endryu Şofer bölgəyə kəşfiyyata gəlib

## Ermənistan daha həmsədrlik institutunu dirçəldə bilməyəcək



"ABŞ-ın məqsədi Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsinin sətirləri arasına öz marağını qatmaqdır"

**İsmayıl Qocayev**

**ABŞ dövlət katibinin köməkçisi Karen Donfrid Dövlət Departamentindən alınan təlimat əsasında, ABŞ-ın Qafqazdakı danışıqlar üzrə baş müşaviri Endryu Şoferi Ermənistana yola salıb.**

Şofer İrəvandan sonra Bakıya gələcək. Ekspertlərin fikrincə, səfər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Qərbin bundan sonrakı rolunun hansı səviyyədə olacağını müəyyən etmək üçün kəşfiyyat xarakteri daşıyır. Şoferin siması və soyadı bizə əvvəldən tanışdır. O, bundan əvvəl ATƏT-in Minsk qrupunun amerikalı həmsədri qismində regiona səfərlər edib.

Siyasi şərhçi Aqşin Kərimov vurğulayıb ki, biz "ATƏT-in Minsk qrupunun həmsədri" ifadəsini işlədərkən taleyi sual altında olan, faktiki olaraq "dəfn edilən" bir institutu nəzərdə tuturuq. Analitik qeyd edib ki, son iki ildəki tablodan çıxarış etsək, görərik ki, ATƏT-in Minsk qrupunun ali platforması olan həmsədrlik kürsüsü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair normal düsturlar verə bilmir: "Ukraynadakı müharibə isə ABŞ, Rusiya və Fransanı Cənubi Qafqaza dair onsuz da əvvəldən də şübhəli olan vahid baxış müstəvisindən uzaqlaşdırır. Tərəflər ancaq öz dövlətlərinin iradəsi ilə proseslərdə aktiv iştirakçılığa can atırlar. Elə ABŞ Dövlət Departamenti də amerikalı diplomatın regiona səfərini həmsədr qiyafəsindəki trafik adlandırmaqdan qaçır. Buna rəğmən, Ermənistan hələ də "bulanıq suda balıq tutmaq" sevdasından əl çəkmir. Ermənistanın rəsmi resursları və media platformasının təqdimatlarında Şoferin İrəvanda keçirdiyi görüşlər "həmsədr" çərçivəsinə salınır. Məlumatlarda Şoferin adının önünə "həmsədr" epiteti yapışdırılır".

**A.Kərimov bəyan edib ki, Minsk qrupunun tərkibinin dəyişdirilməsi və ya həmsədrlik postunun ləğvi proseduru həyata keçirilməyib. Amma faktiki olaraq həmsədrlik dərinləşən qlobal ziddiyyətlər burulğanında sovrulub:** "Bu tezisi gücləndirən arqumentlər isə Rusiyanın rəsmi şəkildə bəyanatlarıdır. Həmçinin, bir neçə gün öncə fransalı həmsədr Bris Rokfeylin Ermənistana səfər etməsidir. Rokfeyl həmsədr qismində deyil, Fransa Xarici İşlər Nazirliyinin Şərq tərəfdaşlığı üzrə xüsusi nümayəndəsi kimi İrəvanda idi. ABŞ da yaydığı informasiya ilə həmsədrliyin tarixə qovuşduğu məntiqini gücləndirdi. İndi Ermənistanın "həmsədr" müraciəti isə ümidsizlik və çarəsizlikdən doğan təəssüratlardır və instinktiv mahiyyət daşıyır. ABŞ-ın məqsədi həmsədr kimi yox, məhz qlobal oyunçu kimi Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsinin sətirləri arasına öz marağını qatmaqdır. Prosesin qlobal çəkişmələr fonunda hansı yöndə olacağı başqa mövzudur. Demək istədiyimiz odur ki, Ermənistanın həmsədrliyi diriltmək cəhdlərinin heç bir əsası yoxdur və bu səyləri nəticəsiz qalacaq".

# BMT Ukraynaya görə toplaşır

## Rusiyanın beynəlxalq qurumdan çıxarılması real görünmür



**BMT Təhlükəsizlik Şurasının Ukraynadakı vəziyyətlə bağlı xüsusi iclası keçiriləcək. Bu barədə TASS-a təşkilatdakı mənbə bildirib.**

Toplantının aprelin 19-na təyin edildiyini qeyd olunur. Qeyd edək ki, Ukraynanın işğalı ilə bağlı görüşlər, iclaslar, xüsusi toplantılar mütəmadi olaraq keçirilir. Amma bunların nə dərəcədə effektiv olması sual altındadır. Ötən gün Ukrayna lideri Volodimir Zelenski də ölkədəki vəziyyətdən danışarkən silah tədarüklərinin gecikdiyini vurğulayıb. Zelenski bildirib ki, bu gecikmələr Ukraynada insanların həyatını ciddi şəkildə təhlükəyə atır.

**Ukraynadakı vəziyyətlə bağlı baş tutan görüşləri "Şərq"ə şərh edən siyasi ekspert Asif Nərimanlı qeyd edib ki, Rusiya Ukraynanı işğal etməyə başladığı zamandan bəri bu cür görüşlər dəfələrlə keçirilib:**

"Sonuncu dəfə Rusiyanın BMT İnsan Hüquqları Şurasında üzvlüyünü dayandırdılar. Lakin BMT səviyyəsində edə biləcəkləri yalnız budur. Çünki hər kəs kimi, onlar da bilir ki, BMT TŞ-nin bir üzvünün veto qoyacağı istənilən məsələ qəbul edilmir. Mütləq şəkildə bütün üzvlər verilən qərarı dəstəkləməlidir. Bütün ölkələr qərarı dəstəkləsə belə, Rusiyanın veto qoymaq hüququ var. Rusiyanın BMT TŞ-dən çıxarılması çox çətin məsələdir. Belə görünür ki, bunun üçün bütün ölkələr təhlükəsizlik sistemini tamamilə dağıtmalıdır. Bu da BMT-nin faktiki dağılmasına gətirib çıxara bilər".

*Ekspertin sözlərinə görə, iclasların məqsədi təkcə işlədiklərini nümayiş etdirməkdir:*

"BMT-nin mövcud olduğu və TŞ-nin mexanizmləri işlədiyi müddətdə Rusiyaya qarşı nəsə etmək mümkün deyil. O baxımdan, bu cür tədbirlərin məqsədi yalnız işlədiklərinin görüntüsünü yaratmaqdır.

Həm də müəyyən qədər təzyiqlərlə nəticəyə nail olmaq çalışırlar. Lakin bu çətin görünür və indiki situasiyada Rusiyaya qarşı beynəlxalq səviyyədə hər hansısa qərar verməsi inandırıcı deyil.

Hətta beynəlxalq məhkəmələrdə soyqırımı, müharibə cinayətləri kimi məsələlər gündəmə gəlir ki, bunlar yalnız qərar kimi qəbul oluna bilər. Verilən qərarların reallaşması isə çətin məsələdir".

**Çimnaz**

# Dərmanlar qaraciyəri sıradan çıxarır

## Avropanı dəhşətə salan uşaq xəstəliyi Azərbaycanda da müşahidə edilib

**Məlahət Rzayeva**



"Dərman hepatiti qara ciyər çatışmazlığı və qara ciyər serrozu kimi ağır pozulmaların səbəbi ola bilər"

**Böyük Britaniyanın ardınca, İspaniyada da uşaqlar arasında hepatitin ağır formasına tutulma halları aşkarlanıb. "Bakupost" xəbər verir ki, ÜST bununla bağlı beynəlxalq həyəcan təbili çalır.**

Qaraciyər mütəxəssisləri bu xəstəliyin mənbəyi, belə sürətlə baş verməsi və uşaqlarda orqan çatışmazlığına gətirib çıxarmasının səbəblərini hələ anlaya bilmirlər. Bəzi xəstələrə hətta təcili qaraciyər köçürülməsi də tələb olunub. İspaniyada artıq 5 uşaqda belə qəribə vəziyyət yaranıb. "La Razo"nun məlumatına görə, xəstələnənlər 2-7 yaş arası uşaqlardır. Mütəxəssislər uşaqlarda koronavirusdan sonra qara ciyərin sıradan çıxıb-çıxmaması arasındakı əlaqəni də təhlil edirlər. Böyük Britaniyada təkcə mart ayında 70 uşaqda - 2-5 yaş arası qaraciyərlə bağlı qəribə simptomlar görünməyə başlayıb: ürəkbulanma, qusma, mədə-bağırsaq işində pozulma, sarılıq. Artıq 10 uşağa qaraciyər köçürülməsi barədə qərar verilib. ÜST Britaniya nümayəndəliyi virusun belə aqressiv hücumunun mənbəyini tapa bilmir.

Koronavirusun orqanizmdə bir çox fəsadlar yaratdığı məlumdur. Uşaqlar arasında qaraciyər yetməzliyinə koronavirus səbəb ola bilərmi?

**Təcili Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında qara ciyər yetməzliyinin bir neçə səbəbi ola biləcəyini qeyd etdi:**

- Uşaqlar arasında yayılmış xəstəlik, əlbəttə, təəssüf doğurur. Səbəblərə gəlincə, bəli, koronavirusun da təsiri ola bilər, uzun müddət dərman preparatlarının qəbul edilməsinin də. Dərman preparatlarının uzun müddətli qəbulu qanda trombositlərin miqdarının aşağı düşməsinə gətirib çıxarır. Qara ciyər orqanizmdə müxtəlif funksiyaları yerinə yetirir. Bu funksiyalardan biri orqanizmə düşən toksinlərin və ziyanlı maddələrin zərərsizləşdirilməsidir. Qaraciyərdə xüsusi fermentlər var ki, bu fermentlər ziyanlı maddələri ziyansız maddələrə çevirir. İstənilən dərman preparatı qara ciyərdə zərərsizləşdirilir. Qaraciyərin fermentləri orqanizmə düşən hətta ən ziyanlı dərmanı ziyanı olmayan maddələrə çevirir və daha sonra bu maddələr orqanizmdən xaric olunur. Lakin əgər insan dərmanları uzun müddət ərzində və yüksək dozalarda qəbul edirsə, qara ciyər fermentlərinin öz funksiyalarını tam şəkildə yerinə yetirməyə gücü çatmır artıq. Nəticədə ziyanlı maddələr zərərsizləşdirilmir və qara ciyərdə yığılaraq orqanın hüceyrələrini dağıtmağa başlayır. Bu isə hepatitin inkişafına səbəb olur. Hepatitin bu forması "dərman hepatiti" adlandırılır. Dərman hepatiti qara ciyər çatışmazlığı və qara ciyər serrozu kimi ağır pozulmaların səbəbi ola bilər. Xəstəliyin məhz bu formasına kifayət qədər tez-tez rast gəlinir.

Ş.Məmmədov təəssüflə qeyd etdi ki, bizdə də koronavirus pandemiyası müddətində uşaqlar arasında hepatit xəstəliyinin yayılması müşahidə edilib:

- Bizdə də belə hallar var. 2-3 uşaqda buna rast gəlinib. Xəstəliyin əsl səbəbini bilmək üçün hepatitin mənşəyi mütləq araşdırılmalıdır.

# Bütün dini icmalara maliyyə yardımı ayrıldı

## Azərbaycanda yaşayan digər dinlərin nümayəndələri hər zaman dövlətin qayğısı ilə əhatə olunub



**Prezident İlham Əliyev "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncama əsasən, Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat vəsait ayrılıb. Həmçinin, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına, Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna da maliyyə yardımı göstərilib. Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, Azərbaycan müsəlman ölkəsi olsa da, burada yaşayan digər dinlərin nümayəndələri də hər zaman dövlətin qayğısı ilə əhatə** olunublar. Deputatın sözlərinə görə, sərəncama əsasən, Qafqaz Müsəlmanları ilə yanaşı digər dinlərin nümayəndələrinə də yardımın ayrılması bu fikri bir daha təsdiqləyir: "Azərbaycan azsaylı ölkələrdəndir ki, burada dövlət siyasətində dini icmalar arasında heç zaman ayrı-seçkiliyə yol verilmir. Eyni zamanda Azərbaycan nadir ölkələrdəndir ki, dini ibadət yerlərini dövlət özü inşa, təmir və bərpa edir. Dövlətin ölkəmizdə fəaliyyət göstərən icmalara eyni münasibəti göstərməsi Azərbaycandakı müxtəlif dinlərin nümayəndələrinin sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasına ciddi töhfələr verir. Bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

**İsmayıl**

# Mayın 1-dən maska rejimi ləğv olunur

## Aprel ayının sonlarında Operativ Qərargahın iclası gözlənilir



**Artıq bir aya yaxındır ki, Azərbaycanda maska rejiminin və quru sərhədlərinin açılması ilə bağlı müzakirələr gedir. Pandemiya ilə bağlı son günlərin statistikası da bu qadağaların ləğvi ilə bağlı münbit şərait yarandığını göstərir. Bu barədə hətta Milli Məclisdə deputatlar da müxtəlif bəyanatlarla çıxış edirlər.**

Bizim.Media bildirir ki, may ayının 1-dən Azərbaycanda maska rejiminin ləğv edilməsi ilə bağlı qərar veriləcək.

Bununla bağlı aprel ayının sonlarında Operativ Qərargahın iclasının keçiriələcəyi də bildirilir.

Millət vəkili Rəşad Mahmudov qərarın hazırlanması ilə bağlı müəyyən dairələrdə müzakirələrin aparıldığını mətbuata açıqlayıb.

Mütəxəssislər pandemiya ilə bağlı ölkədə təhlükənin sovuşduğunu, sadəcə insanların bəzi ehtiyat tədbirlərinin görülməsi zərurəti qaldığını bildirilər. Buna da şəxsi gigiyena və bəzi proflaktik tədbirlər aiddir.

Yəni, adi qripdə olduğu kimi, sadəcə imuniteti yüksək tutmaq, xəstəlik simptopları olan adamlarla ünsiyyətdən uzaq durmaq lazımdır.

Qərarın nə vaxt veriləcəyi yaxın günlərdə bəlli olacaq. Məsələni dəqiqləşdirmək üçün Operativ Qərargaha ünvanladığımız sualın cavabı olan kimi diqqətinizə çatdıracağıq.

# Ən etibarlısı qızıldır

## "Müharibələr, təlatümlər dövründə qızıl investorlar üçün həmişə güvənli liman rolunu oynayır"



**Qızıl ABŞ-da yüksək inflyasiyanın təzyiqi altında bahalaşıb. Londonun metallar birjasında qızılın qiyməti cari ilin martın 11-dən sonra ilk dəfə bir unsiya üçün 2 min ABŞ dollarını ötüb. Gün ərzində qızılın qiyməti bir unsiya üçün 2 003 ABŞ dollarına çatıb.**

Nyu-Yorkun "Comex" birjasında qızılın iyun fyuçersləri 0,56 faiz və ya 11 ABŞ dolları bahalaşaraq, 1 unsiyası 1 985,9 ABŞ dollarına satılıb. Gümüşün may fyuçerslərinin qiyməti isə 1,19 faiz artaraq, 1 unsiyası 26,01 ABŞ dolları təşkil edib.

Qeyd edək ki, ABŞ-da illik inflyasiya 1981-ci ildən sonra maksimum həddə - 8,5 faizə çatıb.

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, müharibələr, təlatümlər dövründə qızıl investorlar üçün həmişə güvənli liman rolunu oynayır:**

"Etibarlı olaraq da kifayət qədər çox sayda sərmayəçi qızıla yatırım etməyə çalışır. Bu, əsasən, Rusiya-Ukrayna müharibəsi ilə əlaqəli olsa da, digər səbəblər də mövcuddur. Onlardan biri də dünyada inflyasiyanın güclənməsidir. Sərmayəsi olan insanlar inflyasiyadan qorunmaq üçün qızıla yatırım etməyə üstünlük verirlər. Bu trend yəqin ki, bir müddət, ən azından Rusiya-Ukrayna müharibəsi bitənə qədər davam edə bilər. Unsiya üçün 2 min dollar civarında qiymətləri görə bilərik. Amma savaş sona çatsa və dünyada Mərkəzi Banklar faiz artırmağı sürətləndirsə, yenidən qızılın qiymətinin düşməsinin şahidi olacağıq. Məsələn, Amerika Mərkəzi Bankı (FED) yaxın zamanlarda rezerv faiz artımına gedəcək. Azərbaycana isə birbaşa olmasa da, dolayı yolla təbii ki, təsirləri var. Dünya bazarına paralel olaraq daxili bazarlarda da qiymətlər yüksəlir. Amma ölkəmizdə alıcılıq qabiliyyəti düşüb. Yəni qızıl satışı həcmləri azalıb. Qiymətlər bahalaşdıqca satış səviyyəsi də enir. Ona görə də qızıl satıcıları çox da yüksək qiymət qoymaq istəmir".

**Sücayət Mehti**

# Zelenski indi sülhdən çox savaşdan danışır

## İki aylıq müharibə Ukrayna prezidentini siyasətçi kimi püxtələşdirdi

**”Hər iki tərəf danışıqların İstanbulda davam etdirilməsinin tərəfdarı olduğunu deyir. Mən mütəmadi olaraq Zelenski və Putinlə telefonla danışıram”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Türkiyə lideri dəfələrlə tərəflərə çağırış etdiyini bildirib: ”Nəticələrimi, qiymətləndirmələrimi və gözləntilərimi birbaşa və səmimi şəkildə bildirirəm. Mən onlara deyirəm ki, bu müharibədə qalib olmayacaq, hamımız, bütün bəşəriyyət uduzacaq. Mən hər fürsətdə iki lideri Türkiyədə bir araya gətirmək istəyimi bildirirəm. Biz işimizi davam etdirəcəyik”.**

### “Atəşkəslə bağlı tez hərəkət etməliyik”

**Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, danışıqlar aparan komandalarla daim əlaqə saxlayır:** ”Hansı məsələlərdə razılıq, hansı məsələlərdə ixtilafın olması ilə bağlı detallar üzərində işləyirik. Biz görürük ki, yeni soyuq müharibə başlayıb. Atəşkəslə bağlı tez hərəkətə keçməliyik. Türkiyə təşəbbüslərini davam etdirir”.

*Nazir Prezident Ərdoğanın Putin və Zelenski ilə müzakirə aparacağını da xatırladıb.*

### ”Dağıdılmış infrastrukturun ümumi dəyəri 100 milyard dollardır”

**Ukraynanın İnfrastruktur naziri Aleksandr Kubrakov deyib ki, müharibə nəticəsində Ukraynanın bütün infrastrukturunun 30 faizə qədəri zədələnib və ya dağıdılıb:** ”Dağıdılmış infrastrukturun ümumi dəyəri 100 milyard dollardır. Rusiyanın dondurulmuş aktivlərindən istifadə edərək, iki il ərzində hər şeyi yenidən qurmaq mümkün olacaq. Respublika əhəmiyyətli avtomobil yollarında 300-dən çox körpü dağıdılıb və ya zədələnib, onlarla dəmir yolu körpüsü uçurulub, səkkiz min kilometrdən çox yolun təmirə və ya bərpasına ehtiyac var”. Nazir əlavə edib ki, Ukraynanın bərpası üçün Qərbdən dəstək gözləyir: ”Bir sıra mənbələrdən, xüsusən də Rusiyanın dondurulmuş aktivlərindən istifadə etməklə bərpa üçün vəsait əldə etmək olar. İndi Ukrayna Ədliyyə Nazirliyi müttəfiqləri ilə birlikdə bu istiqamətdə işləyir. Variantlardan biri kimi Rusiyanın həbs edilmiş aktivlərini satmaqla nağd pul toplamaq ola bilər”.



***"Onsuz da Rusiya Ukraynanın iqtisadiyyatını, zavod və fabriklərini dağıdıb. Kiyev gələcəkdə sıfırdan başlamalı olacaq"***

Luqansk vilayət administrasiyasının rəhbəri Sergey Qayday bildirib ki, Ukrayna hərbçiləri Popasnaya və Rubejnoe istiqamətində düşmənin hücumlarını dəf ediblər: ”Hücumlar başlayıb, vəziyyət ağırdır, amma müdafiəçilərimiz müdafiə xəttini saxlayırlar. Düşmənin onlarla canlı qüvvə itkisi var, hərbçilərimiz düşmənin ”Orlan-10” PUA-sını və ağır texnikalarını vurublar”. Onun sözlərinə görə, düşmənin gecə hücumları, aviazərbələri artıb, amma heç bir uğur qazana bilməyiblər.

### ”Rusiya qoşunları bütün şərq cəbhəsi boyunca hücuma keçib”

**Ukrayna Ordusunun Baş Qərargahının bəyanatında bildirilib ki, Rusiya qoşunları müharibənin ikinci fazasında bütün şərq cəbhəsi boyunca hücuma keçib.** Qeyd olunub ki, Rusiya qoşunları Donbass regionu üzərində tam nəzarəti ələ keçirmək məqsədi ilə bütün səylərini 480 kilometr uzunluğundakı şərq cəbhəsi boyunca aparılan hərbi əməliyyatlara yönəldib və bütün cəbhə boyunca Ukrayna müdafiə xəttini yarmağa çalışıb. Luqansk regional hərbi idarəsinin rəhbəri Sergey Haidai bildirib ki, Rusiya qüvvələri buvaxtadək yalnız iki ərazini - Kreminna şəhəri və daha bir kiçik şəhəri ələ keçirə bilib.

### Britaniya ən yeni sistemini Ukraynaya göndərir

*Britaniya tez bir zamanda Ukraynaya ”Stormer HVM” zirehli raket qurğuları göndərəcək.* ”San” qəzetinin yazdığına görə, Britaniya Ukraynaya hava hücumundan müdafiə sistemləri ilə kömək edəcəyinə söz verib: ”Müdafiə naziri bu həftə parlamentdə bununla bağlı açıqlama verəcək”. Nəşr yazıb ki, iki həftə əvvəl Britaniya Müdafiə Nazirliyi Solsberidəki sərgidə ukraynalı həmkarları üçün ”Stormer” buraxılış qurğusunu nümayiş etdirib. Qeyd edək ki, ”Stormer” ”BAE Systems” şirkəti tərəfindən istehsal olunub. Onun idarə olunması üçün cəmi 3 heyət üzvü və ”Starstreak” raketləri tələb olunur. Bu raketlər vasitəsilə düşmənin alçaqdan uçan təyyarə və helikopterlərini vurmaq mümkündür.

Britaniya qoşunlarının Əfqanıstandakı keçmiş komandanı Riçard Kempin sözlərinə görə, ”Stormer/ Starstreak” kombinasiyası Rusiya ordusuna ciddi zərbələr vuracaq və Ukraynanın döyüş qabiliyyətini gücləndirəcək.

### Rusiya yenə ”Azov”a təslim olmağı təklif edib

*Rusiya Baş Qərargahının Mərkəzi komandanlıq məntəqəsinin rəisi, general-polkovnik Mixail Mizintsev deyib ki, Moskva Mariupoldakı ”Azovstal” zavodunda yerləşən ukraynalı hərbçilərə təslim olmağı təklif edib:* ”Azovstal” metallurgiya zavodunda yaranmış fəlakətli vəziyyəti nəzərə alaraq, Rusiya silahlı qüvvələri sırf humanist prinsipləri rəhbər tutaraq, bir daha millətçi alayın əsgərlərinə və əcnəbi muzdlulara silahı yerə qoymağı təklif edir”. Qeyd edək ki, Rusiya ordusu vaxtaşırı ”Azov” alayının müqavimət göstərən birliklərinə təslim olmağı təklif edir. Sonuncu dəfə 17 apreldə edilən təklifdən ”Azov” imtina etmişdi.

### Medvedçuk yalvarır, Kreml tələsmir

**Kremlin mətbuat katibi Dmitri Peskov deyib ki, Ukraynada saxlanılan Viktor Medvedçukun Mariupoldakılarla dəyişdirilməsilə bağlı Rusiya və Ukrayna prezidentlərinə etdiyi müraciətə Kreml hələ reaksiya verməyib:** ”Viktor Medvedçukun müraciətini gördük, amma hazırda Kremlin heç bir reaksiyası yoxdur”. Məlumat üçün deyək ki, ”Həyat Uğrunda - Müxalifət Platforması” partiyasının rəhbəri, sabiq deputat, Putinin qızının xaç atası sayılan Medvedçuk Ukraynada xəyanətə görə həbs edilib. Zelenski onun Rusiyadakı əsirlərlə dəyişdirilə biləcəyini, Medvedçuk isə Mariupoldakı əsirlərlə dəyişdirilməsini istəyib.

### ”Ukraynada hərbi əməliyyatın növbəti fazası başlayır”

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Ukraynada xüsusi hərbi əməliyyatın növbəti fazası başlayır. XİN başçısı deyib ki, Moskva Ukraynadakı rejimi dəyişmək fikrində deyil:** ”Biz Ukraynada rejimi dəyişmək fikrində deyilik. Bu barədə dəfələrlə danışmışıq, istəyirik ki, ukraynalılar necə yaşamaq istədiklərinə özləri qərar versinlər”. Lavrov Ukraynada nüvə silahının tətbiqi ilə bağlı sualı cavablandırıb: ”Rusiya Ukraynada xüsusi əməliyyatın hazırkı mərhələsində yalnız adi silahlardan istifadə variantını nəzərdən keçirir. Yalnız adi silahlar”, - Lavrov Rusiyanın Ukraynada nüvə silahından istifadə edib”.

### ”Müharibə Zelenskini siyasətçi kimi püxtələşdirdi”

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəyə başladığı ilk günlərdə Prezident V.Zelenski daha gərgin idi:** ”Zelenski işğalı durdurmaq üçün daima danışıqlar təklif edirdi. Kreml rəhbəri ilə istənilən yerdə görüşməyə hazır olduğunu vurğulayırdı. Zelenski ordusunun qəhrəmanlığını, Buça qətliamını və işğalçının itkilərini gördükcə mövqeyini dəyişdi. İki aya yaxın davam edən müharibə Zelenskini siyasətçi və prezident olaraq püxtələşdirdi. İndi o, sülhdən çox savaşdan danışır. Zelenski ABŞ-ın ”CNN” telekanalına müsahibəsində deyib ki, ”Ukrayna üçün Rusiyanı cilovlamaq vacibdir. Çünki gələcək döyüş bütün müharibənin gedişatına təsir göstərə bilər”. Zelenski lazım olarsa, ölkəsinin işğalçı ilə 10 il də müharibə aparacağını deyib. Onsuz da Rusiya Ukraynanın iqtisadiyyatını, zavod və fabriklərini dağıdıb. Kiyev gələcəkdə sıfırdan başlamalı olacaq. Zelenski ölkəsinin resurslarını tükəndirən Rusiyanın öz resurslarının tükənməsi siyasətinə üstünlük verməyə başlayıb”.

**İsmayıl**



# Rusiya sülh sazişinin bağlanmasını istəmir

## Sabir Məmmədli: “Putin Paşinyanı Qərb siyasətindən uzaqlaşdırmağa çalışır”

**Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək. Məlumata əsasən, danışıqlar zamanı Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında Qarabağa dair razılaşmaların icrasının gedişatı, o cümlədən regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə tədbirlər barədə fikir mübadiləsi aparacaqlar.**

Tərəflər həmçinin ikitərəfli gündəmdə dayanan aktual mövzulardan söz açacaqlar.

Eyni zamanda, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarının icrasının gedişatına da toxunulacaqlar.

**Baş tutacaq görüşü ”Şərq”ə dəyərləndirən BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli deyib ki, Azərbaycan-Ermənistan danışıqları, yekun sülh sazişinin bağlanması xəbərləri Rusiyada ciddi şəkildə narahatlıq doğurur. Çünki proses artıq Rusiyanın moderatorluğundan kənara çıxıb:** ”Bir müddət əvvəl Putin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə müəyyənləşdirdi. Nümayəndəliyin ilkin vəzifəsi sülh prosesinə dəstək vermək olacaqdı. Rusiyanın qətiyyən Cənubi Qafqazdakı hadisələrdən geriyə qalmaq istəmədiyi açıq-aydın görünür. Ukraynadakı vəziyyət də ağırdır. Putin müxtəlif dövlət başçıları ilə görüşərək, ölkəsinin xarici siyasətinin öz axarında irəlilədiyini göstərməyə çalışır. Paşinyan Putinin təsirindən qurtula bilmir. Onu çağırıb, dövlət başçılarının görüşünün görüntüsünü yaradır.

Putin bütünlüklə rəsmi İrəvanın Bakı ilə münasibətlərinin incəliyinə hakim qalmaq istəyir. Müzakirələr isə rəsmi Moskvanın maraqlarının Cənubi Qafqazda təmininə əsaslanır. Artıq Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması reallaşmağa doğru gedir. Ermənistan rəhbərliyi başa düşür ki, sülh sazişi həyata keçməsə, normal fəaliyyət göstərə bilməyəcəklər. Ermənistan dünyada qonşu ölkənin ərazi bütövlüyünü tanımayan yeganə ölkədir. Azərbaycan da Ermənistanın ərazi bütövlüyünü tanımaya bilər. Onda Azərbaycan Ordusunun hərbi əməliyyat keçirməsi mümkündür. Uzunluğu 43 kilometrlik Zəngəzur dəhlizi istiqamətini qət edər və prosesi özü istədiyi kimi yekunlaşdırar. Azərbaycanın deməyə sözü var: Onlar Azərbaycanın ərazi bütövlüyün tanımırsa, biz niyə tanıyaq?!”.

**S.Məmmədlinin sözlərinə görə, Putin Paşinyanı Qərb siyasətindən uzaqlaşdırmağa çalışır.**

”İndiki dövrdə dünyanın sayılıb seçilən güc mərkəzlərindən biri olan Türkiyənin Azərbaycanla əməkdaşlığı çox yüksəkdir. Bunu Rusiya da başa düşür. Sülh sazişinə can atırlar. Lakin Rusiya və Ermənistan öz xislətindən əl çəkmir.

Onlar tərəflər arasında sülh sazişi bağlandığı təqdirdə, Xankəndi və ətraf ərazilərdə yaşayan erməni əhalisinin hüququ məsələsini gündəmə gətirəcəklər. Azərbaycanın daxili məsələsinə qarışmış sayılacaqlar. Özlərinə legitim haqq qazandıracaqlarını fikirləşirlər. Ermənistan öz soydaşlarının hüquqlarının müdafiəsinə səy göstərəcək.

Azərbaycan tərəfi də baş verənləri anlayır. Fikrini konkret şəkildə ortaya qoyur. Əgər ərazi bütövlüyü tanınacaqsa, heç bir dövlət, o cümlədən, Ermənistan Azərbaycanın torpaqlarında baş verən nizamlama prosesinə müdaxilə edə bilməyəcək.

Ölkəmiz qarşı tərəfə şərt qoyur: erməni silahlı birləşmələri mütləq ətraf ərazilərdən çıxarılmalıdır. Bəyanatın dördüncü maddəsi yerinə yetirilməlidir”.

**Aygün Tahir**

# Yayda yalnız kənd təsərrüfatı məhsulları ucuzlaşacaq

## Xaricdən gətirilən məhsullarda isə bahalaşma davam edəcək

**Bir müddətdir ki, ərzaq məhsullarında qiymət artımı müşahidə edilir. Xüsusilə yağlarda bu artım daha çox nəzərə çarpır. Fərqi görmək üçün ötən ilin dekabr ayındakı qiymətlərlə mövcud qiymətləri müqayisə etmək yetərlidir. Türkiyədən idxal olunan duru yağın 1 litrində 2.50-3, Rusiyadan idxal edilən yağın 1 litrində isə 1.50-2 AZN-ə qədər bahalaşma müşahidə edilir.**



Xammalı xaricdən gətirilməklə Azərbaycanda istehsal olunan duru yağın qiymətində isə 1 manata qədər qiymət artımı var.

Kərə yağında da vəziyyət fərqli deyil. İdxalçı şirkətlər növbəti aylarda qiymətlərin daha 30-50 faiz artacağını bildirir.

Ekspertlərin fikrincə, qısa müddətdə mümkün olmasa da, qarşıdakı dövrdə daxili istehsalı artırmadıqca, yağın qiyməti bahalaşmağa davam edəcək.

Qeyd edək ki, yanvar ayından bəri dünyada bahalaşma cərəyan edib. Daha sonra Rusiya və Ukrayna arasında müharibənin başlaması mövcud durumu daha da kritik vəziyyətə gətirib. Təbii ki, Azərbaycan da bu gərgin situasiyadan öz payını götürüb.

**Bahalaşma ilə bağlı ”Şərq”ə açıqlama verən iqtisadçı Ruslan Atakişiyev qiymət artımının səbəblərini izah edib:**

”Məlumdur ki, son dövrlər ərzaq məhsullarının qiymətinə dair rəqəmlər getdikcə yüksəlir. Prosesin mahiyyəti onunla bağlıdır ki, Rusiya-Ukrayna münaqişəsi nəticəsində şimal qonşumuzda, Qazaxıstanda və başqa dövlətlərdə məhsulun ixracı ilə bağlı məhdudiyyətlər qoyurlar.

Ümumiyyətlə, karantin şəraitindən sonra tələbin artmasına görə qida məhsulları ilə əlaqədar təklifin, yəni pandemiyadan çıxan istehsalın tam cavab verə bilməməsi əsasında qiymət artımı gedirdi. Son dövrlərdə baş verənlər bunu sürətləndirdi”.

**İqtisadçı kənd təsərrüfatından başqa digər sahələrdə artımın kəskinləşəcəyini qeyd edib:**

”Azərbaycanda kənd təsərrüfatı məhsulları ilə bağlı yayda ucuzlaşma hiss oluna bilər. Amma digər məhsullarda bahalaşma davam edəcək. Xarici ekspertlər də dəyərlərin yüksəlməsi mövzusuna nikbin yanaşmırlar.

Proses hər hansısa inzibati qaydada həll olunası məsələ deyil. Yəni sahibkarlara demək olmur ki, konkret olaraq filan qiymətdən artıq satmasınlar. Bu, bazar iqtisadiyyatına uyğun addım deyil. Nəticədə qıtlıq yaranar, məhsullarını satmaq istəyən olmaz.

Ona görə də sahibkar malın üstünə elə də yüksək rəqəm qoymur. Asılı olduğumuz xaricdəki məhsullarda qiymət artımı daha çox özünü büruzə verir. Türkiyədə də bahalaşma gedir. Xaricdən daxil olanlarda artım daha da qabaracaq”.

**Cəmilə**

# Generallar Putinə qarşı...

## Cümşüd Nuriyev: “20-yə yaxın general həbs olunub, 40-a yaxın generalın həbsi gözlənilir”



**Rusiyalı generallar Prezident Vladimir Putinə Ukraynadakı müharibəyə son qoymaq istəyi ilə bağlı məktub yazıblar. Bu barədə hərbi ekspert Oleq Jdanov danışıb. Onun sözlərinə görə, məktub Rusiya liderinə Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev vasitəsilə çatdırılıb. Generallara cavab olaraq V.Putin ”əməliyyat”ın davam edəcəyini bildirib.**

Rusiya Prezidenti həmçinin məktubda imzası olan generalların siyahısını tələb edib.

Qeyd edək ki, Avropa dövlətlərinin əksəri Rusiyanı demək olar ki, dünyadan təcrid ediblər. Beynəlxalq siyasi dairələr hər dəfə müharibənin dayandırılmasının vacib olduğunu bildirirlər. Artıq rus generalları da mövcud situasiyanın fərqinə varıblar. Açıq kontekstlə işğalçı siyasətin bitməsini tələb edirlər.

**Generalların Putinə qarşı ”qiyamı”nı ”Şərq”ə açıqlayan verən siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev bildirib ki, rus generallarının rəsmi Moskvanın rəhbərinə müraciəti gözlənilən idi:**

Çünki Rusiya bu günə qədər, yəni Vladimir Putinin hakimiyyətdə olduğu 22 il ərzində guya çox güclü ordu yaradıb. Belə bir mif formalaşdırdılar. Generalitet yüksək səviyyədə təmin olunurdu. Əslində, onlar ordunun yaradıcılığı ilə yox, daha çox özlərinin şəxsi problemlərinin həlli ilə məşğul olublar.

Putin bunu araşdırandan sonra təxminən 20-yə yaxın general həbs olunub. Bunları açıb-abartmırlar. Bildiyimə görə, 40-a yaxın generalın həbsi gözlənilir. Çünki təkcə elə Ukraynada 8 milyard dollar vəsait xərclənib. Xərc orada casus şəbəkəsinin təşkili üçün çəkilib. Amma nəinki bu, ümumiyyətlə, heç nə yaradılmayıb. Ona görə, Putin general heyətinə həddən artıq qəzəblidir”.

**Politoloq izah edib ki, generallar bir növ öz gələcəklərini sığortalamaq üçün bu addımı atıblar:**

”Halbuki, hamısı həmin siyahıda olan generallardı. Müraciət rus liderinin daha kəskin qərarlar almasına səbəb olub. Çünki onun göstərişinə görə, may ayının 9-na qədər nəinki Mariupol, həmçinin Donetsk və Luqanskın bütün inzibati sərhədlərinə qədər azad edilməlidir. Yəni Kramatorsk tutulacaq. Xarkovun işğalı məsələsi gündəmdədir.

Ən pisi də odur ki, ”Moskva” kreyseri batandan sonra Odessanı hədəf götürüblər. Kreml hakimiyyəti arzulayır ki, Ukraynanın dənizə çıxışı olmasın. Qara dənizi də bağlamaq istəyirdilər. ”Rus ayısı”nın belə bir planı var. Ona görə də, generalların müraciətinin heç bir ciddi əhəmiyyəti olmayacaq.

Onsuz da dünyanın hər yerində Rusiyaya qadağalar qoyulub. Ola bilər, müraciəti imzalayan generallar Orta Asiyadan və ya başqa ölkələrin ərazisindən xaricə qaçsınlar. Ehtimal ki, siyasi sığınacaq almaq üçün həmin müraciəti imzalayıblar. Amma müharibə hələ davam edəcək”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**




# Şuşada keçiriləcək qurultay dünyaya səs salacaq

## Diasporumuzun fəaliyyəti Vətən müharibəsi dövründə uğurlu nəticəsini verib

**Diasporumuzun təşkilatlanması və vahid ideya ətrafında birləşməsi istiqamətində mühüm addımlar atılıb. Məhz bunun nəticəsidir ki, diasporumuz Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında yaxından iştirak edir, milli maraqların qorunması işində səmərəli fəaliyyət ortaya qoyur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük inkişaf yolu keçərək dünyada öz sözü və yeri olan dövlətə çevrilib.**

Bu məqam xaricdə yaşayan soydaşlarımıza əlavə güc verir, uğurlarımızı daha da möhkəmləndirmək naminə səyləri artırmağa sövq edir. Xüsusən 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərdə, Qarabağın işğaldan azad edilməsində milli birliyimizin və həmrəyliyimizin rolu danılmazdır. Müasir dünyanın çağırışları yeni diaspor strategiyasını zəruri etdiyindən 2018-ci ildə işlənib hazırlanmış "Strateji Yol Xəritəsi"nin icrası istiqamətində mühüm addımlar atılmaqdadır. Yeni strategiyaya uyğun olaraq ilk növbədə diaspor fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi məqsədilə bir sıra layihələr həyata keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) rəsmi internet saytı yeni tərtibatda, üçün dildə fəaliyyət göstərir. Müasir dövrün tələblərinə uyğun olaraq sosial şəbəkələrə diqqət artırılır, xaricdəki azərbaycanlı uşaqlar üçün onlayn Azərbaycan dili dərsləri təşkil edilir. Həmçinin xaricdə ölkəmizin təbliğatını və sosial mediada işini gücləndirmək məqsədilə diaspor təşkilatlarına informasiya-kommunikasiya texnologiyaları sahəsində tam ödənişsiz texniki dəstək həyata keçirilir. Diasporumuzun akademik səviyyəyə qaldırılması məqsədilə əsasən alimlər, iş adamları, yaşadıqları cəmiyyətin mədəniyyətinə, incəsənətinə töhfə vermiş soydaşlarımızla əməkdaşlığın qurulmasına və genişləndirilməsinə üstünlük verilir. Xüsusən gənclərlə aparılan ideoloji fəaliyyət gücləndirilir. 2018 və 2019-cu illərdə 54 ölkədən 265 gəncin iştirakı ilə yay düşərgələri təşkil olunub. "Azərbaycan Diaspor Gəncləri" şəbəkəsi formalaşdırılıb və Brüsseldə Qış Məktəbi keçirilib. Almaniya, Fransa, Türkiyə, Ukrayna və Gürcüstandakı gənc soydaşlarımızın ölkəmizə səfəri təşkil olunub. Dövlət qurumlarında, təhsil ocaqlarında görüşləri keçirilib. Diaspor fəaliyyəti istiqamətində qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində atılan addımlar dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirib. Dövlətimizin düşünülmüş diaspor siyasəti nəticəsində xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayırlar. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında yüksək fəallıq göstərirlər. Dünya Azərbaycanlılarının V Qurultayının azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq dövrünə təsadüfi etməsi, xüsusən Azərbaycanın mədəniyyət paytaxtı hesab olunan Şuşada keçirilməsi barədə qərarın tarixi əhəmiyyəti və rəmzi mənası var.

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov "Şərq"ə açıqlamasında bildirib ki, dünya azərbaycanlılarının təşkilatlanması və diaspor quruculuğu məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.** Deputat xatırladıb ki, ümummilli lider 2001-ci il mayın 23-də "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncamın imzalanması dünya azərbaycanlılarının təşkilatlanması işinə çox mühüm töhfə olub: "Diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədi ilə mühüm addımlar atılıb. 2002-ci il iyulun 5-də verilmiş Fərmanla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədəki mövcud problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa imkan verib. Eyni zamanda Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində cəmləşdirib. Ulu öndər Heydər Əliyevin hər bir sahədə siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin bu istiqamətdə xidmətləri danılmazdır. Dövlət başçısının müvafiq sərəncamlarına əsasən, dünya azərbaycanlılarının 2006-cı ildə II, 2011-ci ildə III, 2016-cı ildə IV qurultayları keçirilib. Prezident qurultayların hər birində geniş nitqlə çıxış edərək, dünya azərbaycanlılarının davamlı olaraq təşkilatlanması və diaspor fəaliyyətinin müasir dövrün tələbləri əsasında qurulması ilə əlaqədar mühüm tapşırıq və tövsiyələrini verib. Dünya azərbaycanlılarının qurultaylarında Azərbaycan həqiqətlərini özündə əks etdirən bir çox mühüm qərar və müraciətlər qəbul olunub. Ermənistanın ölkəmizə qarşı təcavüzünün dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün bir sıra vəzifələr müəyyənləşdirilib. Həyata keçiriləcək tədbirlər və görüləcək işlər isə dövlət başçısının Sərəncamı ilə 2008-ci il noyabrın 19-da adı dəyişdirilərək fəaliyyəti təkmilləşdirilən Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən koordinasiya olunub. 2018-ci ildə yeni "Strateji Yol Xəritəsi"nin işlənib hazırlanması və icrası nəticəsində bu sahədə bir çox uğurlara imza atılıb. Yol xəritəsinə uyğun olaraq diaspor fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişafı əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Son 4 ildə 31 ölkəni əhatə edən 14 Koordinasiya Şurası və 12 ölkədə 18 Azərbaycan Evi yaradılıb ki, bu da həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsidir".

***Bu toplantı xaricdə yaşayan soydaşlarımızın, mövcud təşkilatların fəaliyyətinin koordinasiyası, milli həmrəylik və birlik ideyasının reallaşdırılması işinə də öz gələcək töhfəsini verəcək***

**Parlament üzvü bəyan edib ki, dünyada yaşayan azərbaycanlıların təşkilatlanması və diaspor fəaliyyətinin genişləndirilməsi işinə Birinci vitse-prezident Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu da çox mühüm töhfələr verib:** "Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xaricdəki azyaşlı uşaqlar üçün "Qarabağ" Azərbaycan məktəbləri təsis olunub. Hazırda həmin məktəblərdə 250-dən artıq azərbaycanlı uşaq həmin məktəblərdə ana dilində təhsil alır. Dünya azərbaycanlılarının təşkilatlanması və diaspor fəaliyyətinin dövlət tərəfindən davamlı olaraq nəzarətdə saxlanılması, bu istiqamətdə lazımi işlərin həyata keçirilməsi Vətən müharibəsi dövründə uğurlu nəticəsini verib. Dünyanın 30-dan çox ölkəsində keçirilən aksiyalarda ümumilikdə 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak ediblər. Bundan əlavə, 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı tərəfindən müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərilib. Dünya Azərbaycanlılarının V Qurultayı artıq ərazi bütövlüyü təmin edilmiş Azərbaycanda, özü də ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçiriləcək. Bu tədbirin Şuşada keçirilməsinin çox böyük tarixi əhəmiyyəti və rəmzi mənası vardır. Dünya azərbaycanlıları V Qurultayda bütün dünyaya bir daha nümayiş etdirəcəklər ki, haqq-ədalət öz yerini tapıb və Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu reallığı isə Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, liderliyi, milli maraqlarımızı qətiyyətlə müdafiə etməsi, düşünülmüş və qətiyyətli siyasəti mümkün edib. Şuşa şəhərində keçiriləcək Dünya Azərbaycanlılarının V Qurultayı, həmçinin xaricdə yaşayan soydaşlarımızın, mövcud təşkilatların fəaliyyətinin koordinasiyası, milli həmrəylik və birlik ideyasının reallaşdırılması işinə də öz gələcək töhfəsini verəcək".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Azəristiliktəchizat"ın qızınmadıq istisinə, kor olduq tüstüsünə

## Razi Abasbəyli: "Mərkəzi istilik sistemlərinə qoşulmaq üçün ilk növbədə istifadəyə verilmiş binaların texniki imkanları araşdırılmalıdır"

**"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti həm tariflərlə, həm də fərdi istilik sistemindən mərkəzi istilik sistemlərinə keçid barədə açıqlamalar verib.**

"Biz istehlakçılar arasında sorğu keçirib monitorinq aparmışıq. Tarifi 15 qəpikdən 22-25 qəpiyə qaldırmaq olar, əhali buna razıdır".

Bunu "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifələrini müvəqqəti icra edən İlham Mirzəliyev bildirib.

"Bizim xarici ekspertlərlə görüşlərimiz olur. Onlar tariflərin artırılmasını təklif edir. Biz isə başqa yol seçmişik. Xidmətin keyfiyyətinin yüksəldilməsi, istilik haqlarının 100 faiz yığılması və xərclərin optimallaşdırılması ilə istilik təsərrüfatının normal fəaliyyətini təmin etmək istəyirik. Amma istilik təchizatı sosial yönümlü olduğu üçün tariflərin artırılması barədə müraciət etməmişik və artım gündəmdə deyil" - deyə o, əlavə edib.

"Azəristiliktəchizat" ASC yeni yaşayış binalarında fərdi istilik sistemlərindən (kombi) istifadənin məhdudlaşdırılması ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib.

Qurumdan Oxu.Az-ın sorğusuna cavab olaraq bildirib ki, məhəlli istilik sistemlərinin istismar xərclərinə mütəmadi texniki xidmət daxildir və təcrübə göstərir ki, bu sistem 20-25 il xidmət göstərir:

Fərdi sistemlərin istismar müddətinin ən yaxşı halda 8-10 il qəbul edildiyi halda, məhəlli sistemlə 2,5 dəfə fərq edir. Başqa sözlə, 8-10 ildən bir fərdi sistemlər dəyişdirilməlidir. Məsələn, orta hesabla mənzildə kombi sistemi 10 ildən bir dəyişdirildiyi halda, bu xərclər ən azı 2 600 manat təşkil edəcək".

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin sədri Mirsalam Qənbərov yeni yaşayış binalarında fərdi istilik sistemlərindən istifadənin ətraf mühitin çirklənməsinə səbəb olduğu üçün ondan istifadənin məhdudlaşdırlması ilə bağlı çağırış etmişdi.

**İstilik sistemlərindəki hazırkı durum və dəyişikliklərlə bağlı iqtisadçı-ekspert Razi Abasbəyli "Şərq"ə danışıb. O bildirib ki, mərkəzi istilik sistemlərinə qoşulmaq üçün ilk növbədə istifadəyə verilmiş binaların texniki imkanları araşdırılmalıdır:**

"Hesab edirəm ki, araşdırmadan sonrakı dövr üçün bu tətbiq edilə bilər. Çünki bu günə qədər artıq formalaşmış və yaşayış olan binalarda bunu etmək bir az çətin olacaq. Vətəndaş ziyan çəkəcək. Eyni zamanda xərcləri sahibkarın boynuna qoyacaqlarsa, bu zaman sahibkar böyük ziyanla üzləşəcək. Azərbaycanda, xüsusilə Bakı şəhərində belə bir mexanizm yoxdur. Çünki yeni tikilən binaların istifadəyə verilməsindən sonra idarəetmə problemləri var. Mənzil təsərrüfatları demək olar ki, yox səviyyəsindədir. Bu təsərüfatları idarə edən inzibati qurumlar - köhnə "JEK"lər artıq sıradan çıxıb. Bina sahibi tikir, istismara icazəsini alır, mülkiyyət hüququ sənədini aldıqdan sonra vətəndaşa satır və çıxıb gedir. Binaların idarəetmə mexanizmi olmadığına görə, bu işləri vətəndaşın boynuna da qoymaq olmaz. Çünki çox ciddi sosial narazılıq yaradar. Yəni bu günə qədər artıq vətəndaş öz imkanları ilə fərdi istilik sistemini qurub və istifadə edir.

Həmçinin, həmin infrastrukturlarda layihələndirmə nəzərdə tutulmayıb. Bunun üçün əlavə ərazi və qazanxana sistemləri və s. qurulmalıdır ki, buna da böyük vəsait lazımdır. Bu vəsaiti nə vətəndaşdan almaq olar, nə də ki, dövlət hansısa investisiya proqramları təsis edə bilər. Təklif bundan sonra inşa ediləcək binalar üçün tətbiq edilə bilər. Binaları inşa edən iş adamlarının qarşısına belə bir tələb qoyula bilər".

**Ekspertin fikrincə, bu məsələ ilə bağlı Dövlət Proqramı hazırlanmalıdır və investisiya ayrılmalıdır:**

"Sovet dövründən qalma sistemlər sıradan çıxıb, köhnəlib. Demək olar ki, qış aylarında kütləvi narazılıqlar olur. Bunun üçün dövlətin investisiya proqramı olmalıdır. Bunu biz elektrik təminatı sistemində də görürük. Məsələn, Dünya Bankından, Avropa Yenidənqurma və İnkişaf Bankından 2 milyarddan çox vəsait ayrılmışdı. 2018-ci ildən sonra elektrik şəbəkələr sistemində infrastrukturun yenilənməsi baş verdi. Sonrakı mərhələdə də bu xidmətlər öz faydalarını verir. Bunu qaz sektorunda da görürük. Müəyyən investisiya proqramları mövcuddur. Xarici mənbələrdən əldə edilmiş vəsaitlər hesabına infrastruktur yenilənir. Eyni zamanda su təminatında da böyük proqramlar həyata keçirilib. İstilik sistemləri ilə bağlı da bunların tətbiqi mümkündür".

**Çimnaz**

# Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə yolu açılır

## Ancaq bir problem var, şəhərin nəqliyyat strukturu ciddi maneələr törədir

**Sağlamlıq imkanları məhdud şəxslər sağlam şəxslərlə birgə təhsil alacaq. Bununla bağlı "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlara dəyişiklik edilir.**



Belə ki, qanun layihəsi təhsil müəssisəsinin tipləri və növləri konkretləşdirilməklə hər iki qanunun normaları bir-birinə uyğunlaşdırılaraq sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılmaqla onların cəmiyyətə uyğunlaşması istiqamətində sağlam şəxslərlə birgə təhsil almaları üçün xüsusi şəraitin yaradılmasının təmin edilməsi məqsədini daşıyır.

**Təhsil eksperti Kamran Əsədovun "Şərq"ə açıqlamasına görə, sağlamlıq imkanları məhdud şagird və tələbələrin rastlaşdığı bir çox problemlər inklüziv cəmiyyətin yaranmasına və ümumiyyətlə, təhsilli əhalinin yetişməsinə ciddi əngəllər törədir.** Yəni müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz. Hazırkı nəqliyyat strukturu və küçələrin, yolların quruluşu sağlamlığı məhdud şəxslərin müstəqil hərəkətinə ciddi maneələr törədir. Hətta dövlət qurumları, təhsil müəssisələri və şirkətlərin bir çoxunun binası da müyəssərlik cəhətdən geri qalırlar:

"Qonşu Türkiyənin və inkişaf etmiş Britaniyanın bu sahədəki işi ölkəmiz üçün nümunə sayıla bilər. Hər iki ölkədə sağlamlıq imkanları məhdud şəxslərə əlavə imtahan müddəti verilməklə yanaşı, onlar ehtiyaclarına uyğun imtahan materialları ilə də təmin edilirlər. Ali təhsil müəssisəsinə qəbul olan tələbə isə nə dövlət, nə də universitetdən heç bir maddi dəstək alır. Belə dəstəyin olmaması qaçılmaz olaraq aşağı təminatlı ailələrdən gələn tələbələrin yolunu bağlayır. Təhsil haqqından başqa təhsillə bağlı dəstəkləyici texnoloji avadanlıqların da alınmasını vacib hesab etsək, o zaman tələbənin nə qədər maddi çətinlik çəkdiyini başa düşə bilərik.

Britaniyada şagirdlərin təxminən 18 faizi bu və ya digər formada sağlamlıq imkanlarının məhdudiyyətindən əziyyət çəkir. Güclü təhsil sistemi ilə ad çıxarmağına baxmayaraq, Britaniyada da sağlamlıq imkanları məhdud şəxslərin nəzərə çarpacaq dərəcədə qismi ya yalnız orta məktəb təhsilinə sahibdirlər, ya da heç bir təhsilləri yoxdur. Aparılan araşdırmalara görə, sağlamlıq imkanları məhdud insanların təxminən 30 faizi heç bir təhsil dərəcəsinə sahib deyildir".

**Hazırda Azərbaycanda da təhsil sistemində inklüziv təhsil sisteminin mövcud olmadığını vurğulayan ekspertin fikrincə, sağlamlıq imkanları məhdud şəxslər xüsusi təhsil ocaqlarında təhsil alırlar:** "Lakin sevindirici haldır ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında yaxın gələcəkdə (2015-2023) məktəbəqədər və ümumi təhsil müəssisələrinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulub. Effektiv təhsilin və dolğun inkluziyanın təmin edilməsinin başlıca yollarından bir neçəsi infrastrukturun müyəssərliyi, sağlamlıq imkanları məhdud şəxslər üçün adekvat vasitələrin təminatı və sağlamlıq imkanları məhdud şəxslərə uyğun tədris materiallarının hazırlanmasıdır. Estoniyada olduğu kimi, Azərbaycanda da məktəblərin xüsusi ehtiyacları olan şagirdlər üçün proqram hazırlaması və bu məsələyə məsul koordinator təşkil etməsini təklif edirik. Bundan başqa, sağlamlıq imkanları məhdud şəxslər üçün fərdiləşdirilmiş adekvat kurrikulumların hazırlanaraq həm xüsusi təhsil ocaqlarında, həm də normal məktəblərdə tətbiq edilməsi inklüziv təhsilin inkişafına dəstək ola bilər.

Görmə qüsuru olan uşaqlar üçün xüsusi məktəblərin təcrübələrinin öyrənilməsi göstərdi ki, xarici dilin öyrənilməsi zamanı şagirdlərlə tədrisə xüsusi metodiki yanaşma korrektiv-pedaqoji işin müasir təşkili sahəsi az işlənib hazırlanıb.

Sağlam uşaqlarla inkişaf qüsurları olan uşaqların bir yerdə təhsil almasına dair mübahisələr indiyədək səngimək bilmir. Əlil uşağın uşaq bağçasında kollektivlə konfliktdən yayınmasına və təhsil proqramının öhdəsindən gəlməsinə necə kömək etmək olar, necə etmək olar ki, o, dərslərdə yorulmasın və özünə inamını itirməsin. Hər bir uşağın təhsil hüququ var. Səhiyyə və təhsil orqanları onu məhdudlaşdırmır. Bu prosesdən hər iki tərəf udur. Bununla yanaşı, hələ bilinmir hansı tərəf daha çox qazanır - buna daha çox ehtiyacı olan əlil uşaq, yoxsa xeyirxahlıq və tolerantlıq dərsləri keçən adi uşaqlar".

**Şəymən**

# Xanların qədim Çin dövləti





**Çin Şərqin qədim dövlətlərindən biri olmaqla yanaşı dünya mədəniyyətinin mərkəzlərindən biridir. Bu əfsanəvi ölkənin dünya mədəniyyətinə bəxş etdiyi yeniliklər, elmi ixtiralar bu gün də öz əhəmiyyətini itirmir. İlk barıt, kompas, kütləvi qəzet, kağız pul və saymaqla bitməyən yeniliklər məhz onların adı ilə bağlıdır.**

Maraqlıdır ki, Çin dövləti deyəndə bizim ağlımıza Çin xalqı gəlir. Yəni rusca Kitay və kitaytsı. Elə fikrimizdən ayrılmamaq şərti ilə bir məsələyə toxunmaq istərdim. Məsələn, kitab, qəzet, jurnallarda Kaspi dənizini, Azərbaycan dilinə çevirəndə isə Xəzər dənizi kimi tərcümə edilməsi ən azı maraq doğurur. Maraqlıdır ki, kimin necə adlandırmalarına baxmayaraq çinlilər özlərini Xan Jen, yəni ”Xanlı, xana mənsub adlandırırlar.

Bütün Şərq xalqları kimi Çinin qədim tarixi əfsanəvi rəvayətlərlə başlayır. Səmadan gələn əjdaha və s. Füsünkar təbiəti olan bu ölkənin bir çox əfsanələri onun həyat mənbəyi sayılan Xuanxe və Yantszı çayları ilə bağlıdır. Xuanxe sarı çay, Yantsızı isə Xan dilində uzun çay deməkdir. Qədimdə burada yaşayan əhalini həmişə iki böyük təhlükə çox narahat edərmiş. Onlardan biri köçəri hunların hücumu, ikincisi isə bu çayların daşması idi. Çində ilk dövlət yaradan və Çini 400 il idarə edən Şan qəbilələrinin nümayəndələri olub. Hakimiyyət uğrunda beş sülalənin apardığı müharibə iqtisadi və hərbi cəhətdən daha güclü Sin sülaləsinin qələbəsi ilə başa çatdı. Eramızdan əvvəl 221-ci ildə Sin sülaləsi Çin ərazisində hökmranlıq edən yeganə dövlət idi. ”Səmanın oğlu” rütbəsindən əl çəkən İn Çjen Şi Xuandi (imperator) rütbəsini qəbul etdi. Çin tarixinə Sinin birinci imperatoru adı ilə daxil oldu. O, vahid pul, çəki və ölçü qaydasını qoydu. Vergiləri səhmana saldı. Ən başlıcası isə onun dövründən bu günə qədər də istifadə edilən vahid yazı sistemi yaradıldı. Bu yazı bir sözü, hətta fikri bildirən heroqliflərdir. Çində orta məktəbin ibtidai sinfində çinli uşaqları bu yazını çox çətinliklə öyrənirlər. İbtidai sinfi qurtaran şagirdlər bu işarələrin yalnız 1500-nü öyrənə bilirlər. Əgər nəzərə alsaq ki, o heroqliflərin sayı minlərlədir, bundan sonra çətinliklə də olsa qəzet, yaxud reklamları oxumaq mümkün olur. Digər tərəfdən isə köhnə heroqlifləri yalnız xüsusi təhsili olan insanlar (Deneş Baraç - onlar içində bir neçə min nəfərdir) oxuya bilir. Yeri gəlmişkən, Stalinin dövründə yaranmaqda olan Çin Xalq Respublikası ilə münasibətlər bilinməkdədir. Sovet dövləti Çin kommunistlərinin rəhbəri və ÇXR qurucusu tez-tez Kremlin qonağı olur, təbii ki, məsləhətləşmələr aparılır. Stalinin şəxsi tərcüməçisi V.Berejnikov xatirələrində yazır ki, növbəti gecə görüşlərinin birində köhnə bir sözü dəqiqləşdirmək üçün Mau Tsezeduna tərəf əyildim və sözü aydınlaşdırdım. Bu zaman Stalinin ”siz orda nə pıçıldaşırsınız” deməsi, mənim bir neçə gün rahatlığımı əlimdən aldı. Həmin heroqliflərin ən qədimi heyvanların kürək sümüklərinin üzərinə yazılanlardır. Həmin yazıların mənası çay daşqınları zamanı qorxan əhalinin ALLAHlara verdiyi suallardır. Bilindiyi kimi iki böyük təhlükə Xan əhalisinin başının üstünü həmişə alırdı. Əgər Hun təhlükəsi olmasa idi bəlkə onlar bu divarları daşqınlardan qorumaq üçün inşa edərdilər. Yeri gəlmişkən, bəzən Çin səddini dünyanın yeddi möcüzəsindən biri hesab edənlər var. Əslində antik yunan müəlliflərinə görə, insan əlinin yaratdığı abidələr sırasında bu səddin adı yoxdur. Bəlkə də həmin ”Yeddi möcüzə” termini yarandığı vaxt bu abidə ya yox idi, ya da tikintisinə yeni başlanmışdı. Bahəddin Özəl yazır: ”Çinlilər və çinli olmayanlar arasında həqiqi və dəyişilməz sərhəd anlayışı da Çində ilk dəfə bu dövrdə başlayırdı”. Müasirlərin yazdıqlarına görə, bəzən tikintidə çalışanda ölən insanları divara hörürdülər. Əslində bu abidə qorxu və qəddarlığın daşlaşmış yaddaşıdır. Həmin qəddar imperator Xuandi çalışıb ki, adamlar keçmişi unudub belə təsəvvür etsinlər ki, tarix ondan böyük birinci imperatordan başlayıb. Elə ona əmr edib ki, konfutsiçilik, tarixə dair kitablar hökmən yaradılsın. E.ə 212-ci ildə olmuş bu hadisə ”kitabların yandırılması” adını alıb. İmperatorun fərmanında deyilirdi: ”Hazırki dövranı məhv etmək niyyəti ilə qədim dövrlərə üz tutan şəxslər qohumları ilə birlikdə edam olunacaq.
Sin Xuandi cəsur döyüşçü olub. B.Ögəl yazır ki, qədim Çində at minmək üçün deyil, cəng arabalarına qoşulmaq üçün istifadə olunurdu. Yeri gəlmişkən, bir haşiyə çıxmaq istərdim. Yunan mifologiyasında gentavr deyilən bir canlı var. Bu, qurşaqdan yuxarı insan, aşağısı isə at bədənidir. Əlbəttə, bu əfsanəvi varlığın yaranması yəqin ki, yunanlarla bağlıdır. Belə ki, at belində gördüyü türklərin onlarda necə qorxu yaratdığını göstərir. Burada isə heç bir əfsanə və uydurma yoxdur. Türklərlə aparılan müharibələr bilavasitə həmişə onlara məğlub olan çinlilərə çox şey öyrətdi. Sin Xuandi türklərdəki kimi, cəng arabalarını süvari dəstələrlə əvəz etdi. E.ə 210-cu ildə Sin Xuandi vəfat edir. Onu hökmdara məxsus təmtəraqla dəfn edirlər. Məzarı qorumaq üçün isə daş əsgər heykəlləri əraziyə qoyulur. Sarı imperatorun məzarı yalnız 1974-cü ildə aşkarlanıb.

Və beləliklə Sin sülaləsini indi də Xan sülaləsi əvəz edir. Xan sülaləsinin dövründə bu coğrafiyada vahid xalq formalaşır. Təbii ki, xalqın formalaşması, xarici (Hun) işğalçılara qarşı mübarizə gedişində müəyyən iqtisadi əlaqələrin inkişafında, müəyyən tarixi coğrafiyada gedirdi. Xan sülaləsinin hökmdarları arasında qadın imperator da varmış. O, Xan nəslində sayca altıncı idi. Onun adı U idi. U dövründə belə bir qayda qoyulmuşdu ki, rəsmi dövlət vəzifəsini tutmaq üçün imtahan vermək lazım idi. Bu sülalənin dövründə 4022 km uzunluğu olan Böyük İpək yolu fəaliyyətə başlayıb. Hansı ki, ən işlək yolun bir hissəsi qədim Azərbaycandan keçirdi. Müasirləri yazır ki, bu yol 180-220 gün davam edirdi. Karvan sahibləri daha təcrübəli sarvanlar axtarmalı olurdular. Onlar coğrafiya, hesab, heyətin sağlamlığı üçün tibbi, astronomiyadan xəbərdar olmaqla yanaşı bir neçə dil bilməli idilər. Eyni zamanda bu karvan və onun heyəti bir növ dövlətlərarası diplomatik münasibətləri də həyata keçirirdi. Böyük İpək yolu çiçəklənən iki böyük imperiyanı birləşdirirdi. Bu uzun və məşəqqətli yolun belə adlanması Xanların ipək sirrini uzun müddət gizli saxlamalıdır. Xan xalqı bu sirri bölüşmək istəmirdilər. O dövrdə mövcud olan dövlətlər isə ipəyi qızıl qiymətinə alırdılar.

**Qurbanov Dilavər İsgəndər oğlu,**
**BDU-nun Qazax filialının müəllimi**



## "Meyxanaçı deyiləm"

Pərviz Bülbülə: ”Sadəcə, meyxana deməyin öhdəsindən gəlirəm”

**”Mən meyxanaçı deyiləm. ”Meyxanaçı” adını yapışdırmaqdan xoşum gəlmir”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”ŞouRum”a açıqlamasında ifaçı Pərviz Bülbülə söyləyib.

O, fikirlərini belə ifadə edib: ”Sadəcə, meyxana deməyin öhdəsindən gəlirəm. Dünyaya meyxana söyləməyə gəlməmişəm. Meyxananı, söz yazmağı, musiqini bacarıram və əgər qəbul olunursa, nə xoş halıma”.

**Aygün Tahir**

**Elan**

İsmayılov Tərlan Aslan oğluna məxsus nəqliyyat vasitəsinin sənədləri itdiyi üçün etibarsız sayılır.

Xəlilov Kutais Şəkər oğlunun adına verilmiş M-V-004386 saylı Qarabağ veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Əl çəkə bilmirlər

## Nəinki uşaqlar, gənclər, hətta yaşlı-başlı adamlar da enerji içkiləri içirlər

**Səhiyyə Nazirliyi yaşı 22-dən aşağı olanlara enerji içkilərini qəbul etməməyə çağırıb. Bu barədə nazirliyin ”Facebook” səhifəsində məlumat paylaşılıb.**

Bildirilib ki, enerji içkilərinin gündəlik qəbulu normadan artıq olduqda ürək ritmini pozur: ”Hüceyrələrin artıq impulslardan oyanması baş verir və ürəkdə ciddi problemlər, ölümcül aritmiyalar yaranır”. Məlumatda qeyd olunub ki, bu içkilər uşaqların, yeniyetmələrin inkişafında da problemlər yaradır: ”22 yaşdan aşağı olanlar isə enerji içkilərini qəbul etməməlidilər. Enerjili içkiləri orqanizmdə D vitamininin mənimsənilməsinin qarşısını alır”.

Bəlkə də son günlərdə məktəbyaşlı uaşqlar və gənclər arasında qəfil ölüm sayının artmasının səbəblərindən biri də məhz enerji içkilərinin mütəmadi qəbuludur. Xatırladaq ki, son bir neçə gündə şagirdlər, tələbələr arasında ölüm halları artıb. Bəzi hallarda ölüm səbəbi kimi bədxassəli şişlər göstərilir, bəzənsə səbəb naməlum qalır. Məktəb rəhbərliyindən yalnız ”dərs zamanı qəfildən yerə yıxıldı, keçindi”, açıqlaması verilir. Təbii ki, ölüm səbəbləri müxtəlif ola bilər. Lakin Səhiyyə Nazirliyinin bu formada həyəcan təbili çalması problemin ciddiliyini göstərir.

Valideynlər niyə övladlarına enerji içkilərini qadağan etmir? Deyəcəklər ki, qadağalardan effekt gözləmək absurddur. Halbuki, əksini də isbat etmək olar. Amma mübahisə vaxtı deyil. Məktəblilərin, yeniyetmə və gənclərin əl çəkə bilmədiyi enerji içkilərinin tibbi ziyanı artıq təsdiqlənibsə, demək, ondan imtina vaxtıdır. Bəs imtinanı formalaşdırmaq mümkündür?



### "Hell" içkisinin tərkibində asılılıq yaradan 12 təhlükəli maddə var"

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, orta məktəblərin bufetində enerji içkilərinin satılması qadağandır:**

- Ümumtəhsil məktəblərinin bufetlərində enerji içkiləri satılmır. Şagirdlər enerji içkilərini özləri alır. Ya dərsə gələndə özləri ilə gətirirlər, ya da dərsdən sonra yaxınlıqdakı marketlərdən, ticarət köşklərindən alırlar. Valideynlərin buna nəzarət etməsi çox çətindir. Valideyn övladına gündəlik xərclik verir ki, dərs fasiləsində yüngülvari nəsə alıb yesin. Uşaq da sevdiyi, xoşuna gələn qidaları alır. Evdə ata-ana övladına nəyin xeyirli, nəyin ziyanlı olduğunu başa salmalıdır. Başa salanlar var. Amma evdən kənarda, məktəbdə, gəzintidə uşaq yenə də sevdiyi qidanı, sevdiyi içkini almağa can atır. Nəinki uşaqlar, gənclər, hətta yaşlı-başlı adamlar da enerji içkiləri içir və ondan əl çəkə bilmirlər. Çünki insanlarda alışqanlıq yaranır artıq. Necə ki, bəzi insanlar siqareti tərgidə bilmir, eləcə də enerji içkilərindən imtina edə bilmirlər. Asılı insana çevrilirlər çünki. Bir dəfə birliyə Avropada istehsal edilən enerji içkilərinin prodüseri gəlmişdi. Mən ona da bu sualı verdim; sizcə, uzunömürlülük kimə lazımdır? Ailə üzvlərindən başqa heç kimə. Bəs ölkəsində 70-80 faiz təqaüdçü olmasını hansı dövlət istəyər? Bu sualın cavabı, həm var, həm də yoxdur. Bütün qlobal güclərə maliyyə kapitalı lazımdır. Kapitalizm cəmiyyətinin reallığı budur. İstehsalçını zərərli ərzaqların nə qədər insanı xəstə edəcəyi, nə qədər insanın ömrünü qısaldacağı maraqlandırmır. İstehsalçını əldə edəcəyi gəlir maraqlandırır. Gəlir əldə etmək üçün də cəlbedici müxtəlif qidalar, ərzaqlar istehsal edib dünya bazarına çıxarırlar. ”Coca-Cola”da belədir, enerji içkiləri də, ”mkdonalds”lar, ”kfc”lər və sairə. Baxın, ”Hell” cəhənnəm deməkdir. Bir halda ki, istehsalçı məhsulunu cəhənnəm adlandırır, onu alıb içənlər barədə nə düşünmək olar?! Siqaretlərin də qutusunda ”səhhətiniz üçün zərərlidir” yazılır, amma istehsal dayanmır. Enerji içkiləri də belədir. Tərkibi ziyanlıdır, kimyəvi qarışıqlardan istifadə olunur, istehsal davam edir. Heç bir istehsalçı istehlakçını düşünməyəcək. Gərək istehlakçı özü-özünü düşünsün. Zərərli qidalardan, zərərli alışqanlıqlardan imtina edə bilsin.

**E.Hüseynov bildirdi ki, ”Hell” içkisinin tərkibində asılılıq yaradan 12 təhlükəli maddə var. AİB-nin təklifi ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu maddələrin sayının azaldılması barədə qərar qəbul edib:**

- Enerji içkiləri həm də aqressiv reklam bazarına malikdir. Bir çox idman yarışlarına sponsorluq edir, məşhur simalardan istifadə edir, reklamını gücləndirir. Kiçik-böyük - bir çox insan da buna inanaraq o içkiləri alıb içir.

**Məlahət Rzayeva**



# Peşə təhsilinə müraciət edənlərin sayı artacaq

## Tələbələrə təqaüdlərin verilməsi peşə təhsil məktəblərinə marağın və motivasiyanın artırılmasına gətirib çıxaracaq

**Azərbaycanda peşə təhsilinin təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi, əlçatanlığın genişləndirilməsi üçün geniş islahatlar həyata keçirilir.**

”Peşə təhsili haqqında” qanuna nəzərdə tutulan dəyişikliklərə görə, ödənişli əsaslarla oxuyan tələbələr də təqaüd alacaqlar. Mövcud qanunvericilikdə isə peşə təhsili müəssisələrində yalnız dövlət hesabına təhsilalanlara təqaüdün verilməsi nəzərdə tutulub. Təklif olunan dəyişiklik ictimaiyyətdə peşə təhsilinə marağın artırılması baxımından yüksək qiymətləndirilib.

**Təhsil məsələləri üzrə ekspert Qoşqar Məhərrəmovun ”Şərq”ə verdiyi açıqlamaya görə, ödənişli əsaslarla oxuyan tələbələrin təqaüd alması peşə təhsilinə marağın artırılması baxımından son dərəcə əhəmiyyətli bir addımdır:** ”Peşə təhsili hər bir ölkənin inkişafı üçün vacib bir sahədir. Azərbaycanda da peşə təhsilinin inkişafı olduqca vacibdir. İnkişaf etməkdə olan ölkələrin sənaye potensialı və iqtisadi inkişafının təməl komponentlərindən biri işçi qüvvəsinin olmasıdır. Ümumdaxili məhsulun artırılması və valyuta ehtiyatlarının artması üçün müvafiq sahələr üzrə kadr potensialının olması mühüm şərtdir. Valideynlər övladlarını əsasən ali təhsilə kökləyirlər. Övladlarının biliyini, potensialını, intellektual imkanlarınə nəzərə almadan sadəcə diplom xatirinə ali təhsilə istiqamətləndirirlər. Onlar peşə təhsilinin əhəmiyyətinə diqqət yetirmirlər. Hamı müəllim, həkim olası deyil ki!? Valideynlər öz övladlarının potensialını düzgün qiymətləndirməli və peşə təhsilinin əhəmiyyətinə də diqqət yetirməlidirlər. İstehsalat sahəsində də yerli kadrların yetişdirilməsi qarşıya qoyulan əsas məqsədlərdən biridir. Çünki xaricdən işçi qüvvəsinin gətirilməsi kifayət qədər baha başa gəlir. Peşə təhsil məktəblərinə marağın və motivasiyanın artırılması baxımından sözügedən dəyişikliyi alqışlayıram”. Q.Məhərrəmovun sözlərinə görə, bu dəyişiklik mütərəqqi xarakter daşıyır və peşə təhsilinə marağın artırılmasına mühüm töhfə verəcək: ”Hesab edirəm ki, bu dəyişikliyin qəbulundan sonra peşə məktəblərinə müraciət edənlərin sayı artacaq. Dövlətin üzərinə düşən məsələ peşə təhsil müəssisələrinin sayını artırmaq, regionlarda fəaliyyətini genişləndirməkdir”.

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1113



## Dünyanın tənha evi satışa çıxarıldı

Həftə sonunu keçirmək üçün bundan yaxşı bir yer yoxdur



**ABŞ-ın şimal - şərqində yer alan Vohoa körfəzində dünyanın tənha evi olaraq adlandırılan ev satışa çıxarılıb.**

Qonşusu və duşu olmayan "tək ev" 339 min dollara sahibini gözləyir. Vohoa körfəzində olan mülk, körfəzin və ətrafındakı Atlantik okeanının kəsilməz 360 dərəcəlik mənzərəsində yerləşir.

Elana çıxarılan ev, "duşu yoxdur", "hər şeydən həqiqətən uzaqlaşmaq və təbiətin içinə dalmaq istəyən biri üçün idealdır. Ev Duck Ledges adası birlikdə təqdim edilir. Dünyada həftə sonunu keçirmək üçün bundan yaxşı bir yer yoxdur" qeydi ilə verilib.

**Turan**

## Ronaldonun əkizlərindən biri vəfat etdi

Məşhur futbolçu bu barədə sosial şəbəkədə bildirib



**"Mançester Yunayted"in portuqaliyalı hücumçusu Kriştiano Ronaldonun yeni dünyaya gəlmiş körpəsi vəfat edib.**

Məşhur futbolçu bu barədə sosial şəbəkədə bildirib. Ötən oktyabrda Ronaldo əkiz uşaq gözlədiklərini bildirmişdi. Lakin qız yaşasa da, oğlan ölüb.

"Dərin kədər hissi ilə bildirirəm ki, bizim körpəmiz tələf oldu. Bu, bir valideynin keçirə biləcəyi ən böyük kədərdir. Lakin qızımızın dünyaya gəlməsi bizə ümid verir" - deyə məşhur idmançı qeyd edib.

## Pele növbəti dəfə xəstəxanaya yerləşdirilib



**Braziliyalı əfsanəvi futbolçu Pele yenidən xəstəxanaya yerləşdirilib.**

**"Report" ESPN-ə istinadən xəbər verir ki, 82 yaşlı veteran hücumçu əvvəllər kimyaterapiya kursu keçdiyi San-Pauludakı "Albert Eynşteyn" klinikasındadır.**

**Həkimlərin nəzarəti altında olan üçqat dünya çempionunun həyatı üçün təhlükə olmadığı bildirilib.**

**Qeyd edək ki, Pele ötən ilin sentyabrında yoğun bağırsağındakı şişlə əlaqədar əməliyyat edilib.**

## Gündə 2 dəfə zəfəran qanda şəkərin səviyyəsini xeyli salır



**Britaniya mətbuatı "Daily Express" alimlərin şəkər xəstələri üçün möcüzə məsləhətini açıqlayıb.**

**Bakupost xəbər verir ki, gündə 2 dəfə zəfəran qəbulu qanda şəkərin səviyyəsini xeyli salır. Bunun üçün zəfəranın su-spirtdə ekstraktını qəbul etmək lazımdır.**

**Xüsusi ekstrakt olmadıqda 1 qram zəfəranı çay kimi dəmləyib gündə 2 dəfə içmək şəkər xəstələrində acqarına şəkərin səviyyəsini salır.**

## Böyrək xəstəliyi olanlara banan qadağandır



**Banan böyrək xəstəliyi olan insanlara zərər verə bilər.**

**Bakupost.az xəbər verir ki, bu barədə həkim Silviya Klinqer məlumat verib.**

**"Bananda çox miqdarda kaliy var. Böyrəklərin bir işi isə qanda kaliyin miqdarına nəzarət etməkdir. Əgər böyrək zəifdirsə, kaliylə zəngin qidalar onu yükləyir, vəziyyətini daha da pisləşdirir.**

**Banandan əlavə portağal, narıngi də kaliylə zəngindir.**

**İstənilən böyrək xəstəliyi olanlar, böyrək köçürülməsi olanlar banan, portağaldan uzaq dursa yaxşıdır"**




# Anadolunun qəlbi Afrikada döyünür

Uşaqlar şalvar geyinib yallı getdi





**Türkiyəli aqronom Mərvə Gülüstan Aydın "Qəlbimdəki təbiət" layihəsi çərçivəsində bu dəfə Afrikaya səfər edib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, M.Aydın Afrikanın cənub-şərqindəki Malavi ölkəsində yoxsulluq içində yaşayan ailələr və uşaqlarla görüşüb, onları ağac, çiçək əkini kampaniyasına qoşub.**

Afrikalı uşaqlarla əyləncəli zaman keçirən Mərvənin sosial şəbəkədə paylaşdığı video maraqla qarşılanıb. Ehtiyac içində ömür sürən afrikalı uşaqların üzünü güldürdüyü üçün Mərvə Aydına minlərlə insan təşəkkür edib. Layihə haqqında danışan M.Aydın "Dreams Of Children Foundation" vasitəçiliyi ilə Afrikaya səfər etdiyini deyib: "Malavinin 19 milyon əhalisi var. Xalq çox yoxsuldur. Dərnəyimiz Malavidə iqtisadi dirçəlişə nail olmaq, uşaqlar üçün məktəblər inşa etmək, əhalinin gəlirlərinin artması üçün müəssisələr açmaq və daha bir neçə belə faydalı işlə məşğul olur. Mən də dərnəyin işinə "Qəlbimdəki təbiət" layihəsi ilə dəstək oluram. Kənd təsərrüfatı mühəndisiyəm. Malavidə yerli xalqa, uşaqlara əkin və heyvandarlıqla bağlı təlim keçirəm. Onlara ərzaq, geyim də aparırıq. Amma əsl məqsədimiz yerli əhaliyə peşələr öyrətməkdir. Bunun sayəsində çalışsınlar, ailələrinin ehtiyaclarını qarşılaya bilsinlər. Bu işləri uşaqlarla birlikdə icra edirik. Uşaqlar ağac əkməyi, çiçəkləri çox sevir. Bu, onları sevindirir, gözləri gülür, xoşbəxt olurlar". M.Aydın Malavinin torpağının münbit olduğunu deyib: "Burada yağış boldur. Torpaq da bərəkətlidir. İlin 12 ayı əkib-becərirlər, amma məhsuldarlıq çox azdır. Biz bura gələndə əkin məsələlərində naşı olduqlarını gördük. Kənd təsərrüfatı mütəxəssisi olaraq onlara bəzi məsələlərdə məsləhət verməyə başladım. Torpağı necə gübrələmək, toxumu necə səpmək, torpağa bir il bir məhsul, növbəti il başqa bir məhsul əkməli olduqlarını anlatdım, bildiklərimi, təcrübəmi onlarla bölüşdüm", söyləyən M.Aydın Malavidə, Afrikanın bir çox ölkəsindəki kimi, hər evdə ən azından 1 körpənin aclıqdan öldüyünün acı həqiqət olduğunu deyib. "Ailələrə südü bol keçilər vermişik. Keçini necə bəsləməli olduqlarını da başa salmışıq. Bunu ona görə edirik ki, hamilə qadınlar, körpəsi olan qadınlar özləri də süd içsin, körpələrinə də içirsinlər". M.Aydın bildirib ki, Malaviyə ilk səfəri zamanı 2 min 300 pöhrə əkilib, 5-6 kəndin yararlana biləcəyi meyvə-tərəvəz bağçaları salınıb. Pöhrələr Türkiyədən - tanışlar, dostlar, layihə barədə məlumatı olanlar tərəfindən göndərilib. Pöhrələri kim göndəribsə, adı yazılmış lövhəni ağacın, çiçəyin baş tərəfində torpağa basdırıblar. M.Aydın tarlaları gəzərkən ənənəvi türk şalvarı geyinib. Bu da yerli camaatın marağını çəkib. M.Aydından onlara da şalvar gətirməsini istəyiblər. Növbəti səfərində M.Aydın ailələrə, uşaqlara da türk qadınlarının geyindiyi milli şalvarlar aparıb. Uşaqlara şalvarları M.Aydının anası hədiyyə edib. Uşaqlar bu şalvarları geyinib yallı gedib, həmin video da sosial şəbəkələrdə paylaşılıb.

**Məlahət Rzayeva**



# Putin gerçəklik hissini itirib

Rusiya ordusu "Babalar ordusu"ndan "Uşaqlar ordusu"na keçdi

**Rusiya ordusu Ukraynanın işğalında üzləşdiyi böyük itkilərin yerini doldurmaq üçün uşaqlardan istifadə etməyə başlayıb.**

Bundan öncə rəsmi Kreml ehtiyatda olan hərbi qulluqçuları, hansı ki aralarında yaşı 60-ı haqlamış keçmiş hərbçilər çoxluq təşkil edirdi, gah "könüllülər", gah da "babalar ordusu" adı altında hərbi əməliyyatlara cəlb etmişdi. İndi isə "uşaqlar - nəvələr ordusu" formalaşdırır. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, rəsmi Kreml bu məqsədlə "vətənsevərlər cəmiyyətləri"ndən istifadə edir. İnsan haqları təşkilatları Kremlin şərqi Ukraynada əsgər sayını artırmaq üçün hərbi xidmət yaşı çatmamış yeniyetmələri, əsasən də gənclər klublarının üzvlərini orduya cəlb edir. Burada daha çox adı hallanan "Vətənsevərlər klubu"dur. Bu klub 2014-cü ildə Rusiyanın Luqansk və Donetski işğalından sonra "ölkəni tanıtmaq" kampaniyasının bir hissəsi olaraq qurulub. Bu klublar "beyinyuma" mərkəzləri kimi də tanınır. Ukrayna rəsmiləri BMT-yə müraciət edərək Rusiyanın "uşaq əsgərlər"dən istifadə etməsini araşdırmasını tələb edib. İnsan haqları təşkilatlarının bildirdiyinə görə, rus uşaqlara silahla davranma, güllə atışı təlimləri keçilir və cəbhəyə göndərilir. Cəbhəyə göndərilənlərdən bəzilərinin həyatını artıq itirmiş olması da ehtimallar sırasındadır. Bu ehtimalları rus uşaqlarına aid döş nişanlarının Ukraynadakı döyüş bölgələrində aşkarlanması artırır. Ukrayna parlamentinin insan haqları komissarı Lyudmila Denisova deyib ki, "vətənsevərlər klubu" adı altında beyinyuma mərkəzləri olaraq fəaliyyət göstərən təşkilatlar 2015-ci ildən sonra daha da aktivləşdi. Bu klublara üzv edilən uşaqlara silahla davranış qaydaları öyrədilir. Halbuki, bu, beynəlxalq hüquqla qadağandır. Uşaqların orduya cəlb edilməsi Cenevrə konvensiyasına ziddir və insan haqlarının kobud pozulmasıdır.

Ötən həftə Moskvada Putinlə görüşən Avstriya kansleri Karl Nehammer Putinlə görüşdən sonra "Rusiya lideri gerçəklik hissini itirib, həqiqətdən çox uzaqlaşıb", məncə, Putin artıq şəxsi müharibə məntiqiylə hərəkət edir. Müharibəni qazandığına özünü inandırıb", söyləyib.

**Məlahət**

## Britni Spirs saxlanıldı

Müğənni yol hərəkəti qaydalarını pozub



**Müğənni Britni Spirs yol hərəkəti qaydalarını pozduğuna görə polis tərəfindən saxlanılıb.**

Axşam.az xəbər verir ki, "The Blast"ın məlumatına görə, martın 10-da ifaçı sürət həddini aşıb. Kaliforniyada saxlanılan Britni mayın 3-də isə məhkəmə qarşısına çıxacaq.

Nəşrin əldə etdiyi sənədlərdə sənətçinin avtomobili hansı sürətlə idarə etdiyi əks olunmasa da, ətrafdakı şəxslər üçün həyati təhlükəli yaratdığı yazılıb.

Qeyd edək ki, bu, ilk belə hal deyil. 2019-cu ildə Britni sürət həddini aşdığı üçün Kaliforniyada tutulub və cərimələnib.

## Zəhərlənən 22 itdən 17-si öldü

Polis itləri zəhərləyən adamların müəyyənləşməsi üçün geniş əməliyyata başlayıb



**Türkiyənin Manisa şəhərinin Salehli qəsəbəsində zəhərləndiyi iddia olunan 22 itdən 17-si ölüb, 5 itin müalicəsi isə davam edir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, çoxlu sayda itin zəhərlənərək öldürüldüyü məlumatı üzərinə, Salehli Mahal Jandarma Komandirliyi, Salehli Mahal Əkinçilik və Meşə Müdirliyi Təbiət Qoruma və Milli Parklar Şefliyi ilə Salehli Bələdiyyəsi Baytar İşləri və Polis Müdirliyi qrupları tərəfindən ortaq işə başlanıb.

Geniş bir sahədə aparılan araşdırma nəticəsində ilk etapda 13 itin zəhərlənib, öldüyü təyin olunub. 9 it isə zəhərlənmə şübhəsiylə Salehli Bələdiyyəsi Küçə Heyvanları Müalicə və Reabilitasiya Mərkəzində müalicə altına alınıb.

Bütün müdaxilələrə baxmayaraq daha 4 itin həyatı qurtarıla bilməyib. Digər 5 itin isə həkim nəzarəti altında olduğu bildirilib.

Salehli Bələdiyyəsi Baytar İşləri Müdiri Birol Ovçu, mərkəzə gətirilən itlərə əhatəli bir müalicə müddəti tətbiq olunduğunu söyləyib.

Ovçu "Dünən gecə gələn xəbər üzərinə qruplarımızla birlikdə zəhərlənmə hadisəsinin yaşandığı bölgəyə getdik. Qruplarımız hadisə yerinə çatan zaaman artıq bir neçə itin zəhərlənmə səbəbiylə öldüyü təsbit edildi. Həyatda qalan 5 iti isə dərhal mərkəzimizə gətirərək müalicə altına aldıq. Onların salamat qalması üçün əlimizdən gələni edəcəyik" deyə bildirib.

*Jandarma, itləri zəhərləyən adamların müəyyənləşməsi üçün geniş əməliyyata başlayıb.*

**Turan**